QARABAĞ AZƏRBAYCANDIR!

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 209 (6173) 24 noyabr 2020-ci il. Qiyməti 40 qəpik

“Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.

# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad edilmiş Ağdam şəhərində olublar



Noyabrın 23-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad edilmiş Ağdam şəhərində olublar.

## Birinci vitse-prezident: Azərbaycan bayrağına, Azərbaycan əsgərinə, Azərbaycan xalqına eşq olsun

Bax 3



Birinci vitse-prezident Mehriban Əliyevanın rəsmi “İnstagram” səhifəsində Ağdamdan görüntülər paylaşılıb. SİA-nın məlumatına görə, Mehriban Əliyevanın paylaşdığı videoda “Azərbaycan bayrağına, Azərbaycan əsgərinə...

## YAP İcra Katibliyində Yeni Azərbaycan Partiyasının yaradılmasının 28-ci ildönümünə həsr olunmuş videokonfrans keçirilib



Noyabrın 21-də YAP İcra Katibliyində Yeni Azərbaycan Partiyasının yaradılmasının 28-ci ildönümünə həsr olunmuş videokonfrans keçirilib. Videokonfransda çıxış edən Azərbaycan Respublikası Baş nazirinin müavini, YAP Sədrinin...

Bax 6

## Diplomatik korpusun nümayəndələri Füzuli şəhərində Ermənistan silahlı qüvvələrinin törətdikləri vəhşilikləri gözləri ilə görüblər



Bax 7

Noyabrın 22-də Azərbaycandakı diplomatik korpusun rəhbərləri, səfirlər, hərbi attaşelər və beynəlxalq təşkilatların ölkəmizdəki...

## Ermənistan hərbçiləri acınacaqlı vəziyyətdədir



## Tibbi maskalardan istifadə ilə bağlı DİN-dən xəbərdarlıq

Bax 13



DİN Mətbuat xidmətindən mətbuata verilən açıqlamada bildirilib ki, insanların sıx toplaşdığı yerlərdə, bankomat önündə, növbə sıralarında açıq havada maskanı çıxarıb siqaret çəkmək, su içmək, qida qəbul etmək olmaz. SİA xəbər verir ki, verilən məlumata görə, parklarda, insanların sıx toplaşmadığı...

## Fransanın cinayətkar keçmişi: Makron faşizmi dirçəldir



Bax 14

## İbrahimoviç “Milan”ın tarixinə düşdü




Bax 16

## Seyran Ohanyan axtarışa verildi



Bax 11

# “Bəyanat bizim regionda möhkəm və uzunmüddətli sülhün bərqərar olması işində mühüm addımdır”

*Prezident İlham Əliyev Rusiyanın xarici işlər naziri Sergey Lavrovu qəbul edib*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 21-də Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrovu qəbul edib. AZƏRTAC xəbər verir ki, görüşdə Rusiyanın qurumlararası nümayəndə heyətinə daxil olan Rusiya Baş nazirinin müavinləri Aleksandr Novak və Aleksey Overçuk, səhiyyə naziri Mixail Muraşko, Rusiyanın İstehlakçı Hüquqlarının Müdafiəsi və İnsan Rifahına Nəzarət üzrə Federal Xidməti - “Rospotrebnadzor”un rəhbəri Anna Popova, “Rusiya Dəmir Yolları” ASC-nin Baş direktoru və idarə heyətinin sədri Oleq Belozyorov da iştirak ediblər.***



Qonaqları salamlayan Prezident İlham Əliyev dedi:

-Hörmətli Sergey Viktoroviç.

Hörmətli nümayəndə heyətinin üzvləri.

Sizi Azərbaycanda salamlamağa şadam. Sizi yenidən görməyimə şadam. Şadam ki, ölkəmizə bu cür böyük nümayəndə heyəti ilə gəlirsiniz. Nümayəndə heyətinin tərkibi özlüyündə bugünkü müzakirələrin gündəliyini əks etdirir. Bütövlükdə, bizim münasibətlərimizin gündəliyi yetərincə genişdir, bütün sahələri əhatə edir. Lakin bu gün təbii ki, biz, ilk növbədə, Rusiya Prezidenti, Azərbaycan Prezidenti və Ermənistanın baş naziri tərəfindən imzalanmış üçtərəfli Bəyanatın implementasiyası ilə bağlı məsələlər, həmçinin regionda təhlükəsizlik tədbirlərinin möhkəmləndirilməsi məsələləri barədə danışacağıq.



Regionda yeni, çox ümidverici şərait yaranıb. Əminəm ki, müsbət meyillər daha da artacaq. Hər halda, Azərbaycan buna hazırdır və biz bu gün regionun inkişafı barədə düşündüklərimizi ətraflı müzakirə edəcəyik. Əlbəttə, üçtərəfli Bəyanat bizim regionda möhkəm və uzunmüddətli sülhün bərqərar olması işində mühüm addımdır. Rusiya Federasiyasının Prezidenti Vladimir Vladimiroviç Putinin şəxsi rolunu xüsusi qeyd etmək istərdim. O, razılaşmanın mətninin hazırlanmasında çox fəal, səmərəli iştirak edib və bu razılaşmanın uğurla reallaşması faktı çox cəhətdən məhz bu mətnin altında Rusiya Federasiyası Prezidentinin də imzasının olmasından asılıdır.

Regionda təhlükəsizlik tədbirlərinin möhkəmlənməsi işində Türkiyə Prezidenti cənab Rəcəb Tayyib Ərdoğanın oynadığı mühüm rolu da qeyd etmək istərdim. Düşünürəm ki, bütövlükdə həm sülhməramlı missiya baxımından, həm də regionda uzunmüddətli əməkdaşlıq baxımından tərəfdaşlığın formatı bu gün yeni xüsusiyyətlər kəsb edir. Mənim fikrimcə, bu, region ölkələrinin əsas mənafelərinə uyğundur, çünki bizim region ölkələri, təbii ki, təhlükəsizliyin möhkəmlənməsi məsələlərində də əsas rol oynamalıdırlar. Üçtərəfli Bəyanatda razılaşdırılmış məqamlar onu göstərir ki, xoş məram və konstruktiv yanaşma olduqda əvvəllər həlledilməz hesab olunan məsələləri həll etmək olar.

Sizinlə biz nizamlama prosesinin bütün peripetiyalarını yaxşı bilirik. Lakin şadam ki, həm Azərbaycan xalqına, həm də Ermənistan xalqına sülh şəraitində yaşamağa, müharibənin vurduğu yaraları sağaltmağa çalışmağa, gələcək barədə, birgə gələcək barədə bizim üçün, qonşularımız üçün təhlükəsiz gələcək barədə düşünməyə çalışmağa imkan verəcək və bununla da regionumuzda təhlükəsizliyin möhkəmlənməsi işinə töhfə verəcək qərarlara nail ola bilmişik.

Biz həm də ona görə şadıq ki, Bəyanatın bəndlərinin hazırlanmasında birbaşa iştirak etməyən Minsk qrupunun digər üzvləri gec də olsa, Bəyanatın mətninə öz münasibətlərini, müsbət münasibətlərini bildiriblər.

Əlbəttə, biz haqlı olaraq onlardan daha operativ reaksiya gözləyirdik. Lakin görünür, onların öz mövqelərini hazırlamağa imkan verməyən müəyyən amillər olub. Amma necə deyərlər, heç vaxt olmamaqdansa, gec olmaq yaxşıdır. Mən bilirəm ki, Moskvada ATƏT-in Minsk qrupunun nümayəndələrinin görüşü keçirilib. Güman edirəm ki, onların bu bəyanata müsbət yanaşması da təhlükəsizlik tədbirlərinin möhkəmlənməsi və uzunmüddətli sülhün bərqərar olması işində mühüm rol oynayacaq.

Onu da qeyd etmək istərdim ki, Rusiya Federasiyasının Prezidentinin mövqeyinə tamamilə şərikəm. O, bəyan edib ki, bundan sonra “Dağlıq Qarabağ münaqişəsi” söz birləşməsini daha eşitməyəcəyinə ümid edir. Mən də bunu daha eşitməyəcəyimə ümid edirəm. Ümid edirəm ki, Dağlıq Qarabağ barədə danışanda yalnız inkişafla, müharibənin nəticələrinin aradan qaldırılması və vaxtilə öz aralarında düşmənçilik etmiş ölkələrin barışması ilə bağlı xəbərlər eşidəcəyik. Bir daha xoş gəlmisiniz. Sizin gəlişinizə həmişə şadıq. Bu gün konstruktiv işləyəcəyimizə ümid edirik.

Rusiyanın xarici işlər naziri Sergey Lavrov:

-Çox sağ olun, hörmətli İlham Heydər oğlu. İlk növbədə, Sizə Rusiya Federasiyası Prezidentinin ən səmimi salamlarını çatdırıram. Biz buraya idarələrarası nümayəndə heyəti ilə gəlmişik. Onun Sizinlə razılaşdığı kimi, bizim bu səfərimiz kifayət qədər qısa müddətdə həyata keçirilməlidir. Bu, bizim, Rusiya Federasiyasının Prezidentinin 9 noyabr tarixli razılaşmaların reallaşdırılması üzrə səyləri fəal dəstəkləmək və eyni zamanda, Azərbaycan Respublikası ilə bizim tərəfdaşlığımızın xüsusi strateji xarakterini vurğulamaq niyyətini əks etdirir. Bu gün burada bizim qarşılıqlı fəaliyyətimizin bütün istiqamətləri üzrə həmkarlarımızla aparılacaq söhbətlər, əlbəttə, ikitərəfli münasibətlərin xalqlarımızın rifahı naminə inkişaf etməsinə və çiçəklənməsinə yönələcək.

Biz Azərbaycanın 9 noyabr tarixli Bəyanatı dəstəkləyən mövqeyini yüksək qiymətləndirdik. Hörmətli İlham Heydər oğlu, Siz dediyiniz kimi, bu razılaşmanı heç də hamı dərhal qəbul etmədi, onu nəticə baxımından - qan tökülməsinə son qoyulması, dinc həyata, bərpa proseslərinin nizamlanmasına keçid, humanitar problemlərin həlli baxımından deyil, geosiyasi oyunlar prizmasından interpretasiya etməyə çalışdılar. Bu isə, əlbəttə, müasir dünyanın tələblərinə uyğun deyil. Biz xüsusi əhəmiyyət veririk ki, Azərbaycan Prezidenti, hörmətli İlham Heydər oğlu bu regionda barışıq məsələsini daim vurğulayır və biz qəti əminik ki, əgər həqiqətən kənardan gətirilən hansısa maraqlar barədə deyil, insanlar barədə düşünsək, bütün gələcək işlərin mənası bundan ibarətdir.

Biz azərbaycanlı həmkarlarımızla birlikdə erməni tərəfin də iştirakı ilə sülhməramlılarımız vasitəsilə əvvəlki yerlərinə qayıdan insanların mənafeyi naminə humanitar məsələlərin həllinin konkret yollarını fəal surətdə razılaşdırırıq. Buraya mülki infrastrukturun yaradılması, iqtisadi və nəqliyyat kommunikasiyalarının açılması üçün bütün zəruri işlərin nizamlanması və əlbəttə, beynəlxalq təşkilatların, Qırmızı Xaç Komitəsinin, BMT-nin qaçqınlar, ərzaq məsələləri, uşaqların problemləri üzrə strukturlarının, bu qədim regionda mədəni, dini irsin qorunub saxlanması məsələləri ilə daha fəal məşğul olmalı olan UNESCO-nun cəlb edilməsi daxildir.

Şübhəsiz, biz ümid edirik ki, Rusiya ilə birlikdə uzun illər boyu siyasi prosesə rəhbərlik edən ATƏT-in Minsk qrupunun həmsədrləri 9 noyabr tarixli razılaşmalar nəzərə alınmaqla və onların əsasında bu məsələlərin həllinə qoşulacaqlar. Dəfələrlə Sizin də vurğuladığınız, Prezident Putinin də dediyi kimi, bu işlər həmişə ATƏT-in Minsk qrupunun fəaliyyətinin əsasını təşkil edən prinsiplər məcrasında gedir.

Prezident İlham Əliyev Rusiya dövlətinin başçısı Vladimir Putinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Rusiya Prezidentinə çatdırmağı xahiş etdi.

## Rəsmi xronika

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin “Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən Azərbaycan Respublikasının ərazisində alınmış istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallara görə ödənilmiş əlavə dəyər vergisinin qaytarılması Qaydası”nın təsdiq edilməsi haqqında” 2016-cı il 12 iyul tarixli 985 nömrəli və “Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında” 2018-ci il 26 iyun tarixli 148 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 1 may tarixli 30 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Elektron ipoteka və kredit zəmanət” sistemi haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

***

Prezident İlham Əliyev “Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, “Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında” və “Nağdsız hesablaşmalar haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2020-ci il 6 oktyabr tarixli 183-VIQD nömrəli Qanununun tətbiqi və “Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 22 yanvar tarixli 265 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

# "Azərbaycan Ordusu parlaq hərbi qələbə qazandı və beləliklə biz siyasi nizamlama müstəvisinə keçdik"

*Prezident İlham Əliyev Rusiyanın müdafiə nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 21-də Rusiya Federasiyasının müdafiə naziri Sergey Şoyqunun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. AZƏRTAC xəbər verir ki, nümayəndə heyətini salamlayan Prezident İlham Əliyev dedi:***



-Hörmətli cənab nazir.

Hörmətli nümayəndə heyətinin üzvləri.

Sizi Azərbaycanda salamlamağa şadam. Sergey Kujuqetoviç, sizinlə 3 ay bundan əvvəl görüşmüşük. O vaxt siz Ordu Oyunları ilə əlaqədar Azərbaycana gəlmişdiniz. Bu gün biz Rusiya Prezidenti, Azərbaycan Prezidenti və Ermənistanın baş naziri tərəfindən imzalanmış üçtərəfli Bəyanatın yerinə yetirilməsi ilə bağlı məsələləri müzakirə edəcəyik. Bizim fikrimizcə, Bəyanatın müddəaları uğurla həyata keçirilir və bu, həm Azərbaycan tərəfin, həm də Ermənistan tərəfin çoxillik münaqişəyə son qoymağa və siyasi nizamlama mərhələsinə çıxmağa hazır olduğunu bir daha nümayiş etdirir.



Mən keçən dəfə Dağlıq Qarabağ münaqişəsinə dair bizim mövqeyimiz barədə sizə danışmışdım. Siz ölkəmizə avqustun axırında gəlmişdiniz. O vaxt həm iyul ayında, həm də avqust ayında Azərbaycana qarşı hərbi təxribat, silahlı təxribat üçün iki dəfə cəhd göstərilmişdi. Onlardan birincisi iyul ayında, sərhədin Tovuz rayonu hissəsində, digəri avqust ayında Ermənistan silahlı qüvvələrinin təxribat qrupu təmas xəttindən ölkəmizə soxulmağa cəhd göstərmiş və həmin qrupun rəhbəri saxlanılmışdı. Onun ifadələri məhz silahlı təxribat təşkil etmək niyyətində olduqlarını sübut edirdi. Bu siyasət davam etdi və onunla bitdi ki, sentyabrın axırlarında Ermənistan silahlı qüvvələri növbəti dəfə bizim yaşayış məntəqələrinə hücum etdilər və biz onlara layiqli cavab verməli olduq. Sonra nələr baş verdiyini biz hamımız yaxşı bilirik.

Qırx dörd günlük silahlı mübarizədən, silahlı əməliyyatlardan sonra sənəd imzalandı. Mən həmin sənədi çox mühüm siyasi sənəd hesab edirəm, o, mahiyyət etibarilə çoxillik qarşıdurmaya nöqtə qoyur. Sizə, həmçinin Rusiyanın rəhbərliyinə, Prezident Vladimir Vladimiroviç Putinə bu mühüm siyasi sənədin hazırlanmasında və qəbul edilməsində şəxsən fəal iştirak etdiyinə görə təşəkkürümü bildirmək istərdim.

Təəssüf ki, hərbi əməliyyatlar dövründə Ermənistan tərəfi müharibə aparılmasının bütün normalarını, habelə humanitar normaları kobud şəkildə pozub. Bizim şəhərlərimiz və kəndlərimiz hər gün bombardmana məruz qalırdı. Nəticədə aralarında uşaqların və qadınların da olduğu 94 dinc Azərbaycan sakini həlak olub, 400-dən çox adam yaralanıb, 3 mindən çox ev yararsız vəziyyətə düşüb, yaxud tamamilə məhv edilib. Hərbi əməliyyatlar zonasının yaxınlığında yerləşən şəhərlər praktiki olaraq hər gün atəşlərə, minaatan və artilleriya atəşlərinə məruz qalırdı, dinc əhalinin məhv edilməsi üçün Gəncə, Mingəçevir, Bərdə və digər şəhərlərə ballistik raketlərlə məqsədyönlü şəkildə hücum edilirdi. Biz bütün bu hərbi cinayətləri - ballistik raketlərdən, kasetli və fosforlu döyüş sursatlarından istifadə edilməsini sənədləşdirmişik və Azərbaycan tərəfinin görəcəyi sonrakı hüquqi tədbirlərlə əlaqədar müvafiq tapşırıqlar vermişik.

Ermənistan əcnəbi muzdlulardan fəal istifadə edirdi. Bizdə çoxsaylı fotosənədlər və videosənədlər var, əcnəbi vətəndaşların, o cümlədən Fransa, ABŞ, Livan, Kanada, Gürcüstan və başqa ölkələrin vətəndaşlarının pasportları var. Bu vətəndaşların bir qismi erməni mənşəlidir, digərləri belə deyil. Lakin bu, məsələnin mahiyyətini dəyişmir, ona görə ki, Ermənistan tərəfində əcnəbi muzdluların iştirak etməsi, əlbəttə, yolverilməzdir.

Bütün bunlara baxmayaraq, hərbi əməliyyatların nəticəsi hamıya məlumdur. Azərbaycan Ordusu parlaq hərbi qələbə qazandı və beləliklə biz siyasi nizamlama müstəvisinə keçdik. Dünən Azərbaycan Ordusu Ağdam şəhərinə, Ağdam rayonunun işğal altındakı qalan hissəsinə daxil oldu. Beləliklə, Bəyanatın bəndləri yerinə yetirilir.

Biz Rusiya Federasiyasının sülhməramlı missiyasının yerləşdirilməsini də alqışlayırıq. Bu missiya bizim müvafiq strukturlarla və bildiyimizə görə, Ermənistan tərəfi ilə də işgüzar əlaqəli şəkildə işləyir. Hesab edirəm ki, bu, vəziyyətin sabitləşməsi üçün mühüm amildir və Bəyanat imzalanan andan atəşkəslə bağlı hər hansı ciddi pozuntular olmayıb və əminəm ki, olmayacaq.

Biz Azərbaycan ərazisində atəşkəsin müşahidə edilməsi üzrə mərkəz yaradılması barədə Rusiya Federasiyası ilə Türkiyə arasında danışıqların fəal gedişini də alqışlayırıq. Hesab edirik ki, bu, regionda sabitliyin və təhlükəsizliyin möhkəmlənməsi üçün çox mühüm elementdir. Biz Türkiyə rəhbərliyinə və şəxsən Prezident Rəcəb Tayyib Ərdoğana hərbi əməliyyatların dayandırılması üçün ilkin şərait yaradılmasında iştirakına görə təşəkkür edirik. Həm Rusiya, həm də Türkiyə - bizim üçün dost olan iki ölkə, iki qonşumuz atəşkəsə riayət edilməsi və atəşkəsə nəzarət tədbirlərində iştirak edəcəklər. Bu da bizim qonşularımız olan iki ölkə arasında, habelə regional əməkdaşlıq çərçivəsində qarşılıqlı fəaliyyət formatının möhkəmlənməsinə dəlalət edir. Ümidvaram ki, bugünkü atəşkəs və Ermənistan ilə münasibətlərin normallaşması barədə bizim planlarımız, - əgər onlar Ermənistan tərəfindən müsbət qəbul edilərsə, - regionda yeni vəziyyətin, əməkdaşlığın, sabitliyin və təhlükəsizliyin möhkəmlənməsi üçün şərait yarada bilər. Bu, hamının xeyrinə olar. Bizim regionda məskunlaşan xalqlar da, qonşularımız da, bütövlükdə dünya da daha təhlükəsiz olacaq.

Sizi bir daha salamlayıram. Çox şadam ki, siz ölkəmizə böyük nümayəndə heyəti ilə gəlirsiniz, bu gün müzakirə etmək üçün geniş gündəliyimiz var. Bir daha xoş gəlmisiniz.

Rusiyanın müdafiə naziri Sergey Şoyqu:

-Sağ olun, hörmətli cənab Prezident. Əvvələn, Sizə təşəkkür edirəm ki, bizimlə görüşmək, bir qismi təcili, əksəriyyəti aktual, ümdə olan məsələlərin müzakirə edilməsi üçün vaxt tapmısınız. Zaman dinamik hərəkət edir, sürətlə keçir. Rusiya, Azərbaycan və Ermənistan dövlətlərinin rəhbərləri tərəfindən plan, mənim fikrimcə, tarixi Bəyanat qəbul ediləndən sonra o qədər də çox vaxt keçməyib, lakin sülhməramlı kontingent, sülhməramlı qüvvələr müəyyən edilmiş mövqeləri tutublar, yəni orada 23 post var. Təmas xəttində təhlükəsizliyi təmin etmək üçün magistral tərəfdə yerləşən bu postlar nəzarətə götürülüb. Köçkünlərin qayıtması başlanıb. Əlbəttə, nizamlanmış bütün işlər bu gün öz nəticələrini verir.

Siz qeyd etdiyiniz kimi, bu müddətdə, ola bilsin, nadir istisnalarla, hesab edirik ki, əhəmiyyətsiz atışmaları nəzərə almasaq, atəşkəs rejiminə riayət edilir və mən əminəm ki, bundan sonra da belə olacaq.



## Birinci vitse-prezident: Azərbaycan bayrağına, Azərbaycan əsgərinə, Azərbaycan xalqına eşq olsun

Birinci vitse-prezident Mehriban Əliyevanın rəsmi "İnstagram" səhifəsində Ağdamdan görüntülər paylaşılıb. SİA-nın məlumatına görə, Mehriban Əliyevanın paylaşdığı videoda "Azərbaycan bayrağına, Azərbaycan əsgərinə, Azərbaycan xalqına eşq olsun! Dərin hörmət və sevgilərlə, Sizin MEHRİBAN" - deyə, qeyd edilib.

## Vladimir Putin: Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz tərkib hissəsidir



Dağlıq Qarabağ və ətraf rayonlar Azərbaycanın ayrılmaz tərkib hissəsidir. AZƏRTAC xəbər verir ki, bunu Rusiya Prezidenti Vladimir Putin "Rossiya 1" telekanalına müsahibəsində deyib.

V.Putin Ermənistanın belə qondarma "Dağlıq Qarabağ"ın müstəqilliyini və suverenliyini tanımadığını xatırladıb: "Bu, o deməkdir ki, beynəlxalq hüquqa əsasən, Dağlıq Qarabağ və ətraf rayonlar Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsidir".

# Vətəndaşlar yazırlar: Müzəffər Ali Baş Komandan, Siz rəşadətli Ordumuzla yeni tarix yazdınız, yeni qəhrəmanlıq salnaməsi yaratdınız

***Azərbaycan vətəndaşları, xaricdə yaşayan soydaşlarımız Qarabağ müharibəsində qazandığımız tarixi Qələbə münasibətilə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə məktublar ünvanlamaqda davam edirlər. Sevinc hisslərini ifadə etdikləri məktublarda onlar dövlətimizin başçısına minnətdarlıqlarını bildirir, Zəfər təbriklərini çatdırırlar. AZƏRTAC Prezidentin saytına istinadla həmin məktubların bir neçəsini təqdim edir.***



Gürcüstanın Marneuli rayonundan Hacı Xəlilov yazır: "Hörmətli cənab Prezident, uzun illərdir işğal altında olan Qarabağ torpaqlarını azad etməklə Gürcüstan azərbaycanlılarına da böyük sevinc bəxş etdiniz. Bu böyük Qələbə münasibətilə Sizi və bütün azərbaycanlıları ürəkdən təbrik edirəm. Sizə möhkəm cansağlığı, gələcək fəaliyyətinizdə böyük uğurlar arzulayıram. Allah Sizin və Azərbaycanın keşiyində duran əsgərlərimizin daim yardımçısı olsun! İnşallah!".

Bakı şəhərinin sakini İsmayıl Rəhmanzadə: "Müzəffər Ali Baş Komandan İlham Əliyev, mənim 11 yaşım var. Biz hər gün televizordan müharibə barədə verilən məlumatları diqqətlə izləyirdik. Hər dəfə Qələbə xəbərlərini Sizdən eşidəndə çox sevinir və qürur hissi keçirirdik. Noyabrın 10-da isə müharibənin bitdiyini və böyük Qələbə xəbərini eşitdiyimiz zaman sevincimiz yerə-göyə sığmadı. Bizə bu Qələbə sevincini yaşatdığınız üçün Sizə sonsuz təşəkkürlərimizi bildiririk. Cənab Prezident, mənim bir arzum var, o da böyük sevgimi Sizə bildirmək üçün bərk-bərk qucaqlayıb öpməkdir. Ümid edirəm ki, bu arzum ürəyimdə qalmaz. Məktubumu Sizin tarixə düşən sözlərinizlə bitirirəm. Qarabağ Azərbaycandır!".

Şəkidən Səyalı Rəhimova: "Hörmətli Prezident, Müzəffər Ali Baş Komandan, mənim 97 yaşım var. Mən son 50 ildə sentyabrın 27-dən bu günə qədər olduğu kimi, sevindiyimi xatırlamıram. Otuz ilə yaxın müddətdə erməni faşistlərinin işğalı altında qalmış torpaqlarımızın azad olunması barədə Sizin televiziya ekranından xalqa verdiyiniz xəbərlər xalqımızda ruh yüksəkliyi yaratdı. Sizin möhtəşəm çıxışlarınızla yanaşı, döyüş tapşırıqlarını məharətlə yerinə yetirmiş qalib əsgərlərimizin əzmlə işğaldan azad etdikləri yerlərdə üçrəngli bayrağımızı sancıb, daha sonra Sizə "Qarabağ bizimdir, Qarabağ Azərbaycandır" deyə məruzələrini etmələri hər birimizin qəlbində qürur və sevinc hissini daha da artırırdı. Əlbəttə ki, müharibə olan ölkənin yaralısı və şəhidi olar. Allah bütün şəhidlərimizə rəhmət etsin, yaralılarımıza isə şəfa versin! Bu yaşıma qədər Qarabağda olmasam da, bu gün Qarabağın hər qarış torpağı alındıqca çox sevinirəm. Torpaq ulu babalarımızın əmanətidir, torpaqdan pay olmaz. Qarabağın hər qarışında əsgərlərimizin izləri, şəhidlərimizin canı, yaralılarımızın qanı var. Azadlıq ağacı şəhid qanı ilə suvarılar. Əminəm ki, Şuşanın işğaldan azad edilməsi xəbəri bütün dünya azərbaycanlıları və bütün türk dünyasını sevindirdi. Hamı bir-birini təbrik edir, gözaydınlığı verir, çünki bu, əlamətdar bir gündür. Müzəffər Ali Baş Komandan, Siz şücaətli, mətin Ordumuzla yeni tarix, yeni qəhrəmanlıq salnaməsi yaratdınız. Bu gün bütün şəhidlərin və Qarabağ həsrəti ilə dünyasını dəyişmiş insanların ruhları şad olacaq. Allah başda Siz olmaqla, bütün zabit və əsgərlərimizi qorusun!".

Lənkəran sakini Qalib Rəsulovun məktubunda deyilir: "Çox hörmətli cənab Prezident, icazənizlə Sizi, bütün xalqımızı, müzəffər, igid, mərd Ordumuzu yeni tarixi Qələbə münasibətilə öz adımdan, qəsəbəmizin bütün Qarabağ veteran və qaziləri adından səmimi qəlbdən təbrik edim, Sizə uzun ömür, firavanlıq, yeni-yeni zəfər dolu xoş günlər, illər arzulayım. Cənab Prezident, Sizə olan minnətdarlığımızı sözlə izah etmək mümkün deyil. Çünki Siz xəbis, qorxaq, yaltaq düşmənləri əzməklə xalqın ürəyində özünüzə daha böyük inam, Vətənə qarşı böyük məhəbbət yaratmısınız, dövlətimizə zəfər, Qələbə dolu sevincli günlər bəxş etmisiniz. Bu Qələbə şəxsən mənə bir müharibə əlili kimi aldığım yaraların ağrı-acısını unutdurdu. Mənim üçün bundan böyük hədiyyə ola bilməzdi. Cənab Prezident, Sizin mübarizliyiniz, aqilliyiniz sayəsində döyüş meydanında və informasiya mübarizəsində qalib olmağınız göz önündədir. Bunu gələcəyimizi əbədi nura boyayan əbədi liderimizin, Prezidentimiz İlham Əliyevin sayəsində əldə etməyimizlə fəxr edirik. Cənab Prezident, mənim atam daim namaz zamanı Sizə dualar edir. Allah Sizi qorusun! Eşq olsun Azərbaycan dövlətinə! Qarabağ Azərbaycandır!".

Tovuz rayonundan Mehman Əmrahov yazır: "Hörmətli Prezident, Müzəffər Ali Baş Komandan, Sizin rəhbərliyiniz, rəşadətli ordumuzun və xalqımızın fəaliyyəti nəticəsində Qafqazın incisi olan Şuşamız geri alındı, böyük Qələbəmiz əldə olundu. Bu Qələbə ulu öndərimiz Heydər Əliyev siyasətinin təntənəsi, Sizin yorulmaz fəaliyyətinizin nəticəsidir. Siz Şuşanı qaytarmaqla xalqımızın mənliyini, qeyrətini və namusunu özünə qaytardınız. Bu milləti özünü-özünə tanıtdınız, kim olduğunu göstərdiniz ki, bu da psixoloji cəhətdən çox böyük amildir. Biz inanırıq ki, Allahın köməyi, Sizin rəhbərliyinizlə ordumuz qarşıya qoyulan bütün tapşırıqları yerinə yetirəcək, son daşımıza qədər hər bir yurdumuzu geri qaytaracaq. Yaşasın müzəffər Ali Baş Komandan, yaşasın müzəffər ordumuz, var olsun Azərbaycan xalqı. Qarabağ Azərbaycandır!".

Şirvan sakini Cahangir Qasımov: "Hörmətli Prezident, Müzəffər Ali Baş Komandan, Sizi və Sizin timsalınızda bütün Azərbaycan xalqını ölkəmizin ərazi bütövlüyü uğrunda başlanmış Vətən müharibəsinin tam Qələbə ilə başa çatdırılması münasibətilə təbrik edirəm. Sizə uzun ömür, möhkəm cansağlığı arzulayıram".

Beyləqan sakini Ramiz Ağayev: "Möhtərəm Prezident, Müzəffər Ali Baş Komandan, mənim 63 yaşım var. Qarabağın işğaldan azad olunmasını inanın ki, hər gecə yuxumda görürdüm. Sizin komandanlığınız və siyasi iradəniz sayəsində mənim yuxum gerçəkləşdi. İnanın ki, hər dəfə Sizin çıxışlarınıza baxdıqca sevincimdən gözlərim yaşarır. Siz yenilməz sərkərdə, Azərbaycanın atasısınız! Sizinlə fəxr edirik! Çox qürurluyuq ki, Sizin kimi mərd Komandanımız var. Allah şəhidlərimizə rəhmət, yaralı hərbçilərimizə şəfa versin. Siz erməni cəlladlarını "iti qovan kimi" qovdunuz. Sizi bağrıma basıb öpürəm. Mən dəmiryolçuyam. Arxa cəbhədə öz vəzifəmi canla-başla yerinə yetirirəm. Arzumdur ki, Siz Beyləqana səfəriniz zamanı mənim qonağım olasınız, bir fincan çay içməyə imkan tapasınız. Allah Sizi, Ordumuzu və xalqımızı qorusun!".

Füzuli sakini Elmira Əhmədova: "Möhtərəm Prezident, Müzəffər Ali Baş Komandan, Sizə noyabrın 10-da bizə yaşatdığınız Qələbə sevincinə görə öz minnətdarlığımı bildirirəm. Sizə bu çətin məsuliyyətli işinizdə uğurlar arzulayıram. Ömrünüz uzun, nailiyyətləriniz bol olsun! Allah Sizi xalqımızın üzərindən əskik etməsin! Uca Tanrım Sizi, Ordumuzu və bütün xalqımızı qorusun!".

Xocalı sakini Mürsəl İsmayıllı: "Möhtərəm Prezident, Müzəffər Ali Baş Komandan, Sizi bu möhtəşəm Qələbə münasibətilə ürəkdən təbrik edirəm. Bizə bu xoş günü yaşatdığınız üçün sevincimizin həddi-hüdudu yoxdur. İşğal altında olan doğma torpaqlarımız rəhbərliyinizlə şanlı Ordumuz tərəfindən erməni işğalçılarından azad edildi. Sizin qətiyyətli siyasətiniz dövlətimizin ərazi bütövlüyünü bərpa edilməsi ilə nəticələndi. Allah Sizi və Mehriban xanımı qorusun!".

Cəlilabad sakini Əlövsət Məmmədov: "Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandanı, sərkərdəsi, möhtərəm şəxsiyyəti, ağsaqqalı, böyük siyasətçisi, hər bir evin fəxri vətəndaşı, natiqi, xarici jurnalistləri yerində susduran, elmli, savadlı, xarici dövlət başçılarından hərtərəfli seçilən, yaraşıqlı, gözəl insan İlham Heydər oğlu Əliyev, biz cəlilabadlılar Sizi çox sevirik və hər zaman Sizin arxanızdayıq. Vətən müharibəsinin Qələbə ilə başa çatması bizi hədsiz sevindirir. Siz ulu öndər Heydər Əliyevin layiqli davamçısı, böyük sərkərdəsiniz. Ulu Öndər hakimiyyətə gələndə mənim atam televiziya ekranını öpüb dedi ki, axır ki, ölkənin sahibi gəldi, bu insan ölkəni xaosdan, müharibədən qurtaracaq. Elə də oldu. Siz də Ulu Öndərin siyasətini çox uğurla davam etdirirsiniz. Azərbaycanı dünyada ən qabaqcıl ölkələrdən biri etmisiniz. Cənab Prezident, şəhid verməsək, torpağı azad etmək olmaz. Allah bütün şəhidlərə rəhmət etsin. Bu haqq savaşında hamı bir nəfər kimi cəbhəyə yollanıb torpaqlarımızı azad etmək istədi, Sizin arxanızda dayandı. Ali Baş Komandan, özünüzü qoruyun. Siz bizlərə, bu xalqa lazımsınız. Siz Azərbaycanın yeni tarixini yazdınız. İnanın ki, neçə əsrlər keçəcək, bu yeni tarixdən hər gün, hər saat danışılacaq və yazılacaq. Bunu ancaq Siz edə bilərdiniz, cənab Prezidentim. Sizə dünyaya səs salan müqəddəs yolda uğurlar, cansağlığı arzulayıram, yaraşıqlı və savadlı Prezidentim".

Biləsuvar sakini Azad Quliyev: "Hörmətli Prezident, Müzəffər Ali Baş Komandan, biz, Mübarizlər yurdu Biləsuvarın gəncləri Sizi tarixi Qələbə münasibətilə səmimi qəlbdən təbrik edir, xalqımıza yaşatdığınız bu xoşbəxtliyə görə Sizə dərin təşəkkürümüzü bildiririk.

*Ardı Səh. 5*

# Vətəndaşlar yazırlar: Müzəffər Ali Baş Komandan, Siz rəşadətli Ordumuzla yeni tarix yazdınız, yeni qəhrəmanlıq salnaməsi yaratdınız

Əvvəli Səh. 4



Sizin apardığınız uzaqgörən uğurlu diplomatik fəaliyyət öz bəhrəsini verdi, 30 illik işğala son qoyuldu. Siz Vətən müharibəsinin ilk günlərində xalqa verdiyiniz sözü, həmişə olduğu kimi, doğrultdunuz. Sizin qarşınızda duruş gətirə bilməyən erməni faşistləri, uşaq qatilləri məğlub olduqlarını rəsmən təsdiq etdilər. İndi üçrəngli bayrağımız həsrətində olduğumuz doğma, əziz Qarabağımızda dalğalanır. Azərbaycan xalqının qürurlu, cəsarətli, yenilməz xalq olması bir daha öz təsdiqini tapdı. Heç bir təzyiq, hədə-qorxu bizi haqq yolumuzdan döndərə bilməz, çünki bizim Sizin kimi Ali Baş Komandanımız, Prezidentimiz var. Sizin dediyiniz kimi biz haqq yolundayıq, yumruq kimi birik. Bu birlik isə əbədidir və əbədi olacaq! Bu Qələbə Azərbaycanın hərb tarixinə qızıl hərflərlə yazıldı. Allah Sizi, müzəffər Ordumuzu və xalqımızı qorusun!".

Xaçmaz sakini Xalidə Sultanova: "Hörmətli Prezident, Müzəffər Ali Baş Komandan, Vətən müharibəsində göstərdiyiniz igidliyə, qəhrəmanlığa, mərdliyə görə bir Azərbaycan qadını, anası kimi Sizi və Mehriban xanımı ürəkdən təbrik edirəm. Hörmətli Prezident, Siz atanız ulu öndər Heydər Əliyevin vəsiyyətini yerinə yetirən igid oğul kimi Şuşanı, bütün Qarabağımızı işğaldan azad etdiniz, işğalda olan kənd və şəhərlərimizi xalqımıza qaytardınız. Hörmətli Prezident, Vətən uğrunda canından, qanından keçən şəhidlərimizin qarşısında baş əyirik. Əziz Prezidentim, Allah lənətə gəlmiş qəddar, dinsiz-imansız Paşinyanı Sizin qarşınızda xar etdi. Bir daha Qələbə münasibətilə Sizi, bütün Azərbaycan xalqını, qəhrəmancasına vuruşan əsgərlərimizi təbrik edirəm. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!".

Ağdam sakini Aişə Qasımova: "Hörmətli cənab Prezident, Sizi qazandığımız böyük Qələbə münasibətilə səmimi qəlbdən təbrik edirəm. Sizə dərin təşəkkürümü bildirirəm. Biz ağdamlılar həmişə Sizə, Sizin siyasətinizə inanırıq. Sizin uğurlu siyasətiniz və Ordumuzun yenilməz gücü sayəsində biz bu gün torpaqlarımızın azad olunmasından çox xoşbəxtik. Sevinirik ki, tezliklə yurd həsrətimizi qurub-yaratmaq həvəsi əvəz edəcək. İnanırıq ki, Sizin kimi Prezidenti olan xalq heç vaxt yenilməz. Allahdan Sizə uzun ömür, cansağlığı arzulayır, ulu öndər Heydər Əliyevə Allahdan rəhmət diləyirik. Allah Sizi qorusun!".

Ağdamın daha bir sakini Bəxtiyar Şirinov: "Möhtərəm Prezident, Müzəffər Ali Baş Komandan, rəhbərliyiniz nəticəsində əldə edilən Qələbəmiz münasibətilə Sizi və rəşadətli Ordumuzu səmimi qəlbdən təbrik edirik. Sizə uzun ömür, cansağlığı, işlərinizdə uğurlar arzu edirik. Müharibə başlayan gündən istər hərb meydanında, istərsə də siyasi arenada Sizin necə döyüşdüyünüzün şahidi olduq. Bu böyük zəfər Sizin, müzəffər Ordumuzun və xalqımızın şanlı Qələbəsidir. Bütün xalqımız, o cümlədən biz - məcburi köçkünlər təklif edirik ki, Sizə Azərbaycanın Milli Qəhrəmanı adı verilsin. Uca Tanrı Sizi, Ordumuzu, xalqımızı qorusun".

Şəkidən Əşrəf Durmuşov: "Müzəffər Ali Baş Komandan, biz Sizi liderimiz, Milli Qəhrəmanımız, Prezidentlər Prezidenti hesab edirik. Biz Sizinlə fəxr edirik. Mən Sizin çıxışlarınızı çox həvəslə izləyirəm. Ümummilli lider Heydər Əliyevin və ananız Zərifə xanım Əliyevanın ruhları qarşısında baş əyirik ki, xalqımıza Sizin kimi dəyanətli şəxsiyyət bəxş ediblər. Cənab Prezident, Siz bütün dünyaya qalib gəldiniz, yumruğunuzun gücü budur. Hamı Sizə alqış edir, biz Sizinləyik. Mənim övladım da ön cəbhədə Vətənə olan borcunu yerinə yetirir. Cənab Prezidentimiz, Siz bizlərə ümid verdiniz, xalqımız heç vaxt Sizin bizə bəxş etdiklərinizi unutmayacaq. Siz ayağınızı qoyduğunuz yerə xalqımız canını qoyar. Qələbənin dadını bildik və gördük. Sevincimi sözlə ifadə edə bilmirəm. Siz bir dənəsiniz, Uca Yaradan Sizi qorusun! Eşq olsun Sizə! Siz Paşinyanın və ona bənzəyən mıxbirlərin payını yaxşıca verdiniz. Siz qərəzli mıxbirlərin cavabını layiqincə verəndə mən Sizi ayaq üstdə alqışladım, Sizinlə bir daha fəxr etdim. Cənab Prezident, mən on min əhalisi olan kənddə yaşayıram, bütün kəndimiz Sizi sevir, Sizinlə fəxr edir. Biz hamımız - kiçikdən böyüyədək Sizin arxanızdayıq. Siz bizim ömürlük Prezidentimizsiniz".

Ağdam rayonundan Şahmar Rzayev: "Hörmətli cənab Prezident, hər bir xalqın prezidenti, rəhbəri var. Ancaq biz xoşbəxtik ki, xalqı öz dəmir yumruğu kimi ətrafında birləşdirib arxasınca aparan Sizin kimi bir liderimiz var. Məhz Sizin illərcə apardığınız düzgün siyasət, əzmkarlıq və qətiyyətli addımların nəticəsində Azərbaycan beynəlxalq aləmdə öz sərfəli yerini tutdu, güclü iqtisadiyyata və müasir orduya sahib oldu. O orduya ki, bir zamanlar Şuşada yallı rəqsinə oynayan Paşinyanı müasir silahların ritmi altında kapitulyasiya rəqsinə oynamağa məcbur etdi və zəfər qazandı. Öz uzaqgörənliyi, əqli və zəkası ilə dünyada şərəfli tarix yazan Prezidentimiz, Sizə və ailənizə bizə bu şərəfli anı yaşatdığınıza görə uzun ömür arzu edir və minnətdarlığımı bildirirəm. Yaşasın Azərbaycan! Yaşasın möhtərəm Prezidentimiz! Yaşasın Azərbaycan Ordusu! Qarabağ Azərbaycandır!".

Füzuli sakini Könül Rzayeva: "Cənab Prezident, Qarabağın Fatehi, ilk öncə Sizi Qarabağ zəfəri münasibətilə təbrik edirəm. Bizə yaşatdığınız bu şanlı tarix üçün çox sağ olun. Mən Füzuli rayonu, Böyük Bəhmənli kəndində doğulub böyümüşəm. Məcburi köçkün statusu ilə yaşasam da, daim ürəyimdə Vətənimin - Füzulimin nisgilini daşımışam. Bu, həm də bir qürur tarixidir. Sizin və şanlı Ordumuzun sayəsində artıq başımı dik tuturam. Mən Tibb Universitetinin 5-ci kurs tələbəsiyəm. Torpaqlarımızın erməni işğalından azad olunması üçün başlatdığınız əks-hücum əməliyyatlarının ilk günündən, sonuncu yaralı əsgəri yola salana qədər könüllü olaraq Füzuli Müalicə Diaqnostika Mərkəzində yaralı əsgərlərimizə tibbi xidmət göstərdim. Bu xidməti qürur və fəxarətlə Vətənimə, qardaşlarımın axan qanları qarşısında vicdan borcum hesab edərək və Sizinlə zəfərə inanaraq etdim. Siz və birinci xanımımız Mehriban Əliyeva bizim ellərə, işğaldan azad olunmuş Füzuli şəhərinə gələrək bizi qürurlandırdınız, dövlətlə xalqımızın sarsılmaz birliyini bir daha göstərdiniz. Yaşasın Azərbaycan! Qarabağ Azərbaycandır!".

## Avropa Şurasının Baş katibi atəşkəs razılaşmasını alqışlayır



Avropa Şurasının (AŞ) Baş katibi Xarici İşlər naziri Ceyhun Bayramovun məktubunu cavablayıb. SİA-ya bu barədə Xarici İşlər Nazirliyindən məlumat verilib. Bildirilib ki, Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramovun Avropa Şurasının Baş katibi Mariya Peyçinoviç Buriçə ünvanlandığı məktuba cavabında AŞ Baş katibi 9 Noyabr 2020-ci il tarixli atəşkəs razılaşmasını alqışladığını qeyd edib və razılaşmanın icrası ilə əlaqədar vəziyyəti izləməyə davam edəcəyini vurğulayıb.

# YAP İcra Katibliyində Yeni Azərbaycan Partiyasının yaradılmasının 28-ci ildönümünə həsr olunmuş videokonfrans keçirilib

***Noyabrın 21-də YAP İcra Katibliyində Yeni Azərbaycan Partiyasının yaradılmasının 28-ci ildönümünə həsr olunmuş videokonfrans keçirilib.***

Videokonfransda çıxış edən Azərbaycan Respublikası Baş nazirinin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədov bu əlamətdar gün münasibətilə partiyanın Sədri, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevi və bütün partiya üzvlərini təbrik edib. Əli Əhmədov bildirib ki, YAP-ın təsis edilməsinin 28-ci ildönümü Azərbaycanın müzəffər ordusu tərəfindən 30 ilə yaxın işğal altında olan torpaqlarımızın azad edilməsi ilə əlaqədar xalqımızın böyük bayram əhval-ruhiyyəsi və coşğusu ilə üst-üstə düşür. Hesab edirəm ki, YAP öz tarixində ən şərəfli, ən yadda qalan ad gününü qeyd edir. Onun sözlərinə görə, koronavirus pandemiyası ilə bağlı yaşadığımız məhdudiyyətlər ucbatından YAP öz ənənəsinə uyğun olaraq bu ildönümünü təntənəli şəkildə keçirə bilməsə də, ordumuzun zəfər yürüşü, torpaqlarımızın işğaldan azad olunmasından yaranmış əhval-ruhiyyə YAP-ın yaradılmasının 28-ci ildönümünə xüsusi əhəmiyyət verir.



YAP-ın yaradılmasının Azərbaycanın siyasi tarixinin ən parlaq səhifələrindən biri olduğunu deyən Əli Əhmədov qeyd edib ki, 28 il bundan əvvəl yeni müstəqilliyinə qovuşmuş Azərbaycan o zaman ölkəyə rəhbərlik edənlərin bacarıqsızlığı və bağışlanmaz səhvləri ucbatından ağır böhran içərisində boğulur, qeyri-sabitlik ölkədə tüğyan edir, torpaqlarımız Ermənistan tərəfindən işğal olunurdu: "Azərbaycan vətəndaşları əmin idi ki, cəmiyyətimizin özünəqayıdışının təmin edilməsi qüdrətli şəxsiyyət Heydər Əliyevin hakimiyyətə qayıtması nəticəsində mümkün ola bilər. Bu da Azərbaycanı məhv olmaqdan xilas etmək üçün Yeni Azərbaycan Partiyasının yaranması vasitəsilə Heydər Əliyevin hakimiyyətə qayıtmasını təmin etməkdən ibarət idi. Buna görə də, 28 il bundan əvvəl Yeni Azərbaycan Partiyasının təsis olunmasını Azərbaycan cəmiyyəti əslində, Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışının başlanğıcı, bununla əlaqədar yaranmış böyük xalq hərəkatı kimi dərk edir. Təsadüfi deyil ki, Yeni Azərbaycan Partiyası yaranandan təxminən yarım il sonra partiyanın yaradıcısı və Sədri Heydər Əliyev xalqın istəyi, təkidli tələbi ilə hakimiyyətə qayıtdı, bununla da Azərbaycan böhrandan xilas olmaq imkanı qazandı. Azərbaycan tarixinin yeni mərhələsi başlandı. İlk öncə, böhran, qeyri-sabitlik cilovlandı, geniş və hərtəfli islahatlar nəticəsində böyük bir inkişaf strategiyasına start verildi. Bu inkişaf strategiyası nəticəsində mühüm nəticələr əldə olundu. Bu strategiya ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər ordumuz tərəfindən 30 ilə yaxın işğal altında olan torpaqlarımızın azad olunması ilə nəticələndi. Düşünürəm ki, Yeni Azərbaycan Partiyası uğurlu taleyi olan siyasi təşkilat hesab oluna bilər."





YAP Sədrinin müavini qeyd edib ki, bütün bu nailiyyətlər bir partiyanın öz tarixi missiyasını və xalq qarşısında öz üzərinə götürdüyü öhdəlikləri layiqincə, ləyaqətlə yerinə yetirməsinə sübut kimi qiymətləndirilə bilər: "Yeni Azərbaycan Partiyası indiyə kimi qalibiyyətlər, qələbələr, zəfərlər partiyası kimi fəaliyyət göstərib və onun bundan sonrakı fəaliyyəti də yeni-yeni nailiyyətlərlə müşaiyət olunacaq".

Daha sonra Yeni Azərbaycan Partiyasının yaradılmasının 28-ci ildönümünə həsr olunmuş video-çarx nümayiş etdirilib.

Tədbirdə çıxış edən YAP İdarə Heyətinin üzvü, Milli Məclisin İntizam komissiyasının sədri Eldar İbrahimov deyib ki, 28 illiyini qeyd etdiyimiz, Ulu Öndər Heydər Əliyevin adı ilə bağlı olan Yeni Azərbaycan Partiyası siyasi həyatda özünü təsdiqləmiş monolit bir qüvvədir. Partiya hər bir qərarında Heydər Əliyev ideyalarına, Onun milli məfkurəsinə əsaslanaraq dövlətin, xalqın maraqları zəminində öz fəaliyyətini qurub. Onun sözlərinə görə, bu gün YAP milli dəyərlərə əsaslanaraq inkişaf edir: "Buna görə də, hazırda YAP Azərbaycanın ən böyük siyasi təşkilatı olmaqla bərabər, həm də öz xalqına ən yaxın siyasi təşkilatdır. YAP bu gün təkcə Azərbaycanda deyil, ölkəmizin hüdudlarından çox-çox uzaqlarda qəbul olunan nüfuzlu güc mərkəzidir. YAP-ın zəfərlər partiyası kimi nüfuz qazanmasını şərtləndirən əsas amil həmişə xalqın mütləq əksəriyyətinin dəstəyini qazanmasıdır. Son illər respublikamızın iqtisadi və sosial həyatında həyata keçirilən bu nəhəng işlərin icrasında ölkəmizin ən güclü və çoxsaylı partiyası olan Yeni Azərbaycan Partiyasının üzvləri ön sıralarda olub, partiyamızın Sədri, ölkə Prezidenti İlham Əliyevin uzaqgörən və xalqın rifahının yaxşılaşmasına yönəlmiş siyasətini daim dəstəkləyib, öz əməli fəaliyyətləri ilə təsdiq ediblər ki, YAP yalnız bu günün yox, həm də gələcəyin partiyasıdır. Çoxsaylı partiya üzvləri, bütün ölkə vətəndaşları qəlbən inanırlar ki, Ulu Öndərin qurucusu olduğu YAP hələ uzun illər ölkəmizin tərəqqisinə, onun daha da möhkəmlənməsinə öz layiqli töhfəsini verəcək".



"Bildiyiniz kimi Yeni Azərbaycan Partiyasının yaranmasının 28-ci ildönümü xalqımızın tarixində çox əlamətdar bir dövrə təsadüf edir. Bu günlər Azərbaycan xalqının qürur mənbəyinə çevrilmiş hadisələr yaşanıb. YAP Sədri, ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qəhrəman Azərbaycan Ordusunun zəfərləri, torpaqlarımızın işğaldan azad edilməsi dövlətçilik tariximizə qızıl hərflərlə daxil olub. Azərbaycan xalqı 30 illik işğala qəhrəmanlıqla son qoyaraq qələbə çaldı. Azərbaycan Ordusu dövlətimizin ərazi bütövlüyünü bərpa etdi və 10 noyabr tarixi Azərbaycan xalqının yaddaşına qələbə günü kimi yazıldı. Bu gün ilk dəfə biz YAP-ın ildönümünü torpaqlarımızın işğaldan azad olunduğu, ərazi bütövlüyümüzün bərpa edildiyi bir dövrdə qeyd edirik. Ona görə də, qalib ölkənin vətəndaşları olan bütün Azərbaycan xalqı və hər birimiz çox xoşbəxtik ki, bu fərəhli anları yaşayırıq. Bu şanlı tarixi yaratdığına görə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan, partiyamızın Sədri qəhrəman İlham Əliyev cənablarına borcluyuq və Ona dərin təşəkkürümüzü bildiririk", - deyə, E.İbrahimov vurğulayıb.

Çıxış edən YAP Şuşa rayon təşkilatının sədri Təvəkkül Əliyev tədbir iştirakçılarını partiyanın yaradılmasının 28-ci ildönümü və qələbə münasibətilə təbrik edib. Onun sözlərinə görə, ölkə Prezidenti, partiyamızın Sədri, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı ordumuz tərəfindən işğal altında olan torpaqlarımızın, o cümlədən Şuşanın azad edilməsi tariximizə qızıl hərflərlə yazılacaq. Tezliklə bütün azad edilmiş ərazilərimizdə böyük quruculuq işlərinin başlanacağına əminliyini ifadə edən T.Əliyev gələcəkdə partiyanın tədbirlərinin Şuşa şəhərində də keçirilməsini təklif edib.

Milli Məclisin deputatı Fatma Yıldırım da çıxışında qeyd edib ki, Yeni Azərbaycan Partiyasının yaradılmasının 28-ci ildönümü Azərbaycan xalqı üçün möhtəşəm tarixi hadisəyə, torpaqlarımızın erməni işğalından azad edilməsi uğrunda 44 gün davam edən Vətən müharibəsində qazandığımız parlaq qələbənin təntənəsini yaşadığımız günlərə təsadüf edir. F.Yıldırım bildirib ki, 28 illik fəaliyyəti dövründə partiyamız Ümummilli Liderimiz Heydər Əliyevin ideyalarına əsaslanaraq çox böyük və şərəfli yol keçib. İlk növbədə vurğulamaq gərəkdir ki, YAP ictimai-siyasi zərurətdən yaranan ümumxalq partiyasıdır. Onun sözlərinə görə, partiyamızın yarandığı vaxtdan etibarən Azərbaycanda keçirilən bütün ümummilli seçkilərdə parlaq qələbələr qazanması hər kəsə bəllidir. Burada diqqətçəkən məqam ondan ibarətdir ki, hər seçkidən-seçkiyə partiyamızın uğurlarının miqyası genişlənir və bu, seçkilərin nəticələrində də özünü aydın şəkildə ifadə edir.

"Bu gün Azərbaycanda bizim partiyamıza rəqib ola biləcək hər hansı bir siyasi qüvvə mövcud deyil. Yeni Azərbaycan Partiyası, sözün əsl mənasında, ümumxalq partiyasına çevrilibdir. Cəmiyyətimizin bütün təbəqələri partiyamızda birləşib. Uğurlarımızın səbəblərindən biri də məhz ondan ibarətdir ki, əldə edilmiş uğurlar bizə əlavə stimul verir. Hesab edirəm ki, bundan sonra partiyamızın gələcək yubileylərini daha yüksək əhval ruhiyyədə qeyd edəcəyik. Çünki artıq qalib xalqın, qalib dövlətin hakim partiyasının nümayəndələriyik",-millət vəkili söyləyib.

Tədbirə yekun vuran YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədov bildirib ki, Azərbaycan tarixinin yeni mərhələsi başlayıb. O, əminliyini ifadə edərək söyləyib ki, gələcək illərdə partiyamızın yaradılmasının ildönümlərini daha böyük nailiyyətlərlə qeyd edəcəyik.

# Diplomatik korpusun nümayəndələri Füzuli şəhərində Ermənistan silahlı qüvvələrinin törətdikləri vəhşilikləri gözləri ilə görüblər

***Noyabrın 22-də Azərbaycandakı diplomatik korpusun rəhbərləri, səfirlər, hərbi attaşelər və beynəlxalq təşkilatların ölkəmizdəki nümayəndəliklərinin rəhbərləri Ermənistanın işğalından azad olunmuş Füzuli şəhərinə səfər ediblər. AZƏRTAC-ın cəbhə bölgəsinə ezam olunmuş müxbiri xəbər verir ki, səfərin məqsədi diplomatları və hərbi attaşeləri Füzuli şəhərində Ermənistan silahlı qüvvələrinin törətdikləri vəhşiliklər, cinayət izləri ilə tanış etmək olub.***




Diplomatları və hərbi attaşeləri Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev, Birinci vitse-prezidentin köməkçisi Elçin Əmirbəyov və başqaları müşayiət ediblər.

Diplomatlar Füzuli şəhərində Ermənistanın törətdiyi müharibə cinayətlərinin ağır nəticələri ilə tanış olublar. Onlar burada ermənilərin 27 il ərzində törətdikləri vəhşilikləri, vandalizmi öz gözləri ilə görüblər.

Məlumat verilib ki, ermənilər Füzulidə yaşayış məntəqələrini, qəbiristanlıqları, tarixi, mədəni abidələri vəhşicəsinə dağıdıblar.








Erməni işğalçıları Azərbaycanın ən inkişaf etmiş şəhərlərindən olan Füzulidə bir dənə də olsun salamat bina qoymayıblar. Hər şey dağıdılıb, talan edilib. Erməni vandalizmi rayondakı tarixi, mədəniyyət və memarlıq nümunələrindən, mağara və kurqanlardan, türbələrdən və qəbirüstü abidələrdən də yan keçməyib. Bütün bu abidələr yerlə-yeksan olunub.

Xüsusilə vurğulanıb ki, Füzuli sakinlərinin 27 illik yurd həsrətinə Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuzun qəhrəmanlığı sayəsində son qoyulub.

Diplomatlar rayonun Aşağı Ədürrəhmanlı, Kürdlər kəndlərində və Füzuli şəhərində dağıdılmış qəbiristanlıqlara, mədəniyyət obyektlərinə baxıblar.

Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev jurnalistlərə açıqlamasında deyib ki, burada gördüyümüz dağıntılar insanda narahatlıq və qəmginlik doğurur: "Vaxtilə Azərbaycanın çiçəklənmiş şəhərlərindən olan Füzuli gördüyünüz kimi, erməni vandalları tərəfindən viran qoyulub. Bu, əslində, Ermənistanın əsl simasıdır, əsl mahiyyətidir.

Azərbaycanda akkreditə olunmuş xarici ölkələrin səfirləri, beynəlxalq təşkilatların rəhbərləri, diplomatlar və hərbi attaşelərin Füzuli şəhərinə bu səfəri Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin tapşırığı əsasında təşkil olunub ki, onlar öz gözləri ilə işğal dövrü ərzində şəhərə qarşı törədilmiş vandallığı, vəhşiliyi bir daha görsünlər və bunun şahidi olsunlar.

Bundan əvvəl Azərbaycanda fəaliyyət göstərən və ölkəmizə müvəqqəti gəlmiş xarici media nümayəndələrinin də Füzuli şəhərinə səfəri təşkil olunub. Əsas məqsədimiz erməni vəhşiliyinin beynəlxalq ictimaiyyətə təqdim olunmasıdır. Torpaqlarımız işğaldan azad olunana qədər bu barədə danışırdıq, müxtəlif faktları təqdim edirdik. Amma fiziki olaraq bu ərazilərə keçə bilmədiyimiz üçün bunları dolğun əsaslarla əyani formada təqdim etməkdə çətinlik çəkirdik. Amma hər şey bu gün gözümüzün qarşısındadır və biz durduğumuz bu ərazi də Füzuli şəhərinin qəbiristanlığı olub. Burada uyuyan vətəndaşlarımıza, soydaşlarımıza, torpaqlarımızın işğaldan azad olunmasında canını fəda edən şəhidlərimizə Allahdan rəhmət diləyirik.

Azərbaycan vətəndaşı kimi hər birimiz qəmginik, çünki gözümüzün qarşısında belə bir viranəlik var. Digər tərəfdən də fəxr hissi keçiririk ki, torpaqlarımız nəhayət işğaldan azad olundu. Onu da əminliklə qeyd edə bilərik ki, Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi altında Füzuli şəhəri də Azərbaycanın digər şəhərləri kimi yenidən qurulacaq və inkişaf etmiş regionlardan biri olacaq".

Düşməndən azad olunmuş postların birinə baxış zamanı Füzuli Rayon İcra Hakimiyyətinin başçısı Alı Alıyev bildirib ki, bu gün Füzuli şəhərinə səfər edən diplomatlar erməni vandalizmini öz gözləri ilə gördülər: "Bu ərazidən bizim dinc sakinlərimiz 30 ilə yaxındır ki, atəşə tutulub. Mülki əhali arasında şəhid olanlar var. Bu da onu göstərir ki, ermənilərin bu torpaqları geri qaytarmaq fikri olmayıb. Bu ərazilərdən qeyri-qanuni istifadə ediblər. Siz burada iqtisadi cəhətdən güclü olmayan Ermənistanın məhv edilən texnikalarını görürsünüz. Yol boyu gördünüz ki, qəbiristanlıları nə günə qoyublar, texnikalarla məzarları qazıb izini itiriblər. Körpüləri, xəstəxanaları, mədəniyyət obyektlərini, məscidləri dağıdıblar. Ümid edirəm ki, siz bu həqiqətləri bütün dünyaya olduğu kimi çatdıracaqsınız".

Diplomatlar düşmənin Füzuli şəhərinə atdığı "Smerç" raketinin qalıqları olan ərazilərə də baxıblar. Bildirilib ki, döyüşlər gedən vaxtı Ermənistan silahlı qüvvələri qadağan olunmuş silahlardan da istifadə edib.

Dağılmış evini görməyə gələn şəhər sakini Şərafət Hacıyeva diplomatlara deyib: "Bizim evlərimiz ermənilər tərəfindən dağıdılıb. Qoyub getdiyimiz evlərdən əsərəlamət yoxdur. Hər yer dağılıb, məhv edilib. Bütün bunları erməni vəhşiləri, vandalları edib. Onlar bilirdilər ki, bu torpaqlar onların deyil. Bir gün bu torpaqların sahibi qayıdacaq. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Ordumuz torpaqlarımızı işğaldan azad etdi. Evlərimizi belə görüb kədərlənirik. Amma bu kədərlə bərabər, böyük sevincimiz var. Torpaqlarımız işğaldan azad olunub. Biz indi səbirsizliklə rayonumuza qayıdacağımız günü gözləyirik".

Şəhər ərazisində ermənilər tərəfindən dağıdılmış Hacı Ələkbər məscidinin yerləşdiyi əraziyə baxış zamanı diqqətə çatdırılıb ki, bu dağılmış tikili XIX əsrə aiddir. Rayonun işğalına qədər yararlı vəziyyətdə olub. 1993-cü ildə Füzuli rayonunun işğalı zamanı erməni vandalları tərəfindən məscid tamamilə dağıdılıb. Göründüyü kimi, ermənilər təkcə Azərbaycan xalqına deyil, onun maddi-mədəni irsinə qarşı da vandallıq hərəkətləri həyata keçiriblər. Məscidin işğaldan əvvəl iki minarəsi olub. Məscidin yalnız bir minarəsinin qalıqları qalıb, digəri tamamilə dağıdılıb. Hacı Ələkbər məscidi respublika əhəmiyyətli tarixi abidədir. Ermənilər Füzuli rayonunda olan bütün məscidlərə qarşı bu cür vandallıq ediblər. Məscidlərdə heyvan saxlayıb, tövlə kimi istifadə ediblər. Şəhər Mədəniyyət Mərkəzinin yerləşdiyi əraziyə baxış zamanı burada skripkada səslənən musiqi diplomatların marağına səbəb olub.

## Ərdoğan G20-nin Zirvə toplantısında Qarabağdan danışıb



Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Səudiyyə Ərəbistanının dönəm rəhbərliyi ilə keçirdiyi G20 sammitinin Zirvə toplantısına canlı bağlantıyla qatılıb. SİA CNN Türk-ə istinadən xəbər verir ki, toplantıda bir sıra önəmli məsələlə ətrafında danışan Türkiyə Prezidenti Dağlıq Qarabağda baş çatan müharibə barədə də fikirlərini bölüşüb. Dağlıq Qarabağda 30 ildir davam edən işğalın sona çatmasına dəstək göstərdiklərini deyən Ərdoğan Həzrət Mövlanədən sitat gətirib: "Hər nə qədər çətin günlər yaşasaq da, Həzrət Mövlanənin dediyi kimi, ümidsizliyin ardına neçə ümidlər, qaranlığın ardında neçə günəşlər olduğunun fərqindəyik. Bütün insanlıq olaraq əl-ələ, könül-könülə verdiyimizdə sıxıntılarımızın daha da həfifləyəcəyinə inanırıq".

Ərdoğan yaşanılan torpaqların sadəcə dədələrdən qalan miras deyil, eyni zamanda uşaqların bir əmanəti olaraq görülməsi vacibliyini də ifadə edərək, sadəcə bu günün deyil, sabahların, uşaqların və sonrakı nəsillərin də düşünülməsinin önəmliyini vurğulayıb.

***Rövşən***

## Hikmət Hacıyev: "Füzulidən dünyaya sülh və dözümlülük müraciəti edirik"



Füzuli şəhərinin Ermənistan tərəfindən dağıdılmış Mədəniyyət Mərkəzinin qarşısındayıq. Musiqinin gücü ilə dünyaya sülh və tolerantlıq mesajlarımızı göndəririk. AZƏRTAC xəbər verir ki, bu barədə xarici diplomatlarla, hərbi attaşelərlə Füzuli rayonuna səfər edən Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev özünün "Tvitter" hesabında yazıb.

Ermənilər tərəfindən dağıdılmış mədəniyyət mərkəzinin qarşısında 27 il sonra skripka ilə mahnı ifa edilib.

Qeyd edək ki, ölkəmizdəki diplomatik korpusun nümayəndələri, o cümlədən səfirlər, hərbi attaşelər və beynəlxalq təşkilatların Azərbaycandakı nümayəndəliklərinin rəhbərləri Ermənistanın silahlı qüvvələrinin işğalından azad olunmuş Füzuli şəhərinə səfər ediblər. Səfərin məqsədi diplomatları və hərbi attaşeləri Füzuli şəhərində Ermənistan silahlı qüvvələrinin törətdikləri vəhşiliklər, cinayət izləri ilə yerindəcə tanış etməkdir.

YAP-28

# Yalnız qələbələrə layiq olan XALQIN PARTİYASI!


Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin partiyasıdır!

***Azərbaycan dövləti və xalqı tükənməz sevinc və qələbə hissini yaşayır - məhz Ulu Öndər Heydər Əliyevin layiqli davamçısı, cənab Prezident və Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, siyasi iradəsi və rəhbərliyi altında Qarabağımız mənfur düşmən işğalından azad olunub. 44 günlük savaş, 44 günlük qəhrəmanlıq salnaməsi bütün dünyaya Azərbaycan Ordusunun qüdrətini, xalq-hakimiyyət vəhdətini nümayiş etdirdi. Eyni ruhda - qələbə ruhunda birləşən Azərbaycan xalqına, Azərbaycan əsgər və zabitinə düşmən üzərində qazanılmış bu qələbə sevincini yaşadan əsas şəxsiyyət - Böyük Sərkərdə İlham Heydər oğlu Əliyev oldu. Çünki ötən 17 il ərzində məhz Onun apardığı yorulmaz fəaliyyət sayəsində güclü iqtisadiyyat və qüdrətli ordu tandemi yarandı.***


*Bəhruz QULİYEV,*
*"SƏS" qəzetinin baş redaktoru,*
*fəlsəfə üzrə fəlsəfə doktoru*




## Dövlətçiliyimizin qorunub-saxlanılmasında, müstəqilliyimizin bərpasında əsas rolu və vəzifəni yaradıcısı Ümummilli Lider Heydər Əliyev olan YAP icra edib - müəyyən olunmuş tarixi konsepsiyası, ümummilli baxışları ilə

Eyni zamanda, fərəhləndiricidir ki, cənab Prezident İlham Əliyev həm də bu il 28-ci ildönümünü qeyd edən və ümumxalq partiyası olaraq tarix yazan Yeni Azərbaycan Partiyasının Sədridir. Bu qələbə payında YAP-ın da yer alması, əlbəttə ki, 27 ildə əldə edilən qələbələrin ən əsası, ən mühümü və ən əhəmiyyətlisidir. Çünki dövləyçiliyimizin qorunub-saxlanılmasında, müstəqilliyimizin bərpasında əsas rolu və vəzifəni yaradıcısı Ümummilli Lider Heydər Əliyev olan YAP icra edib - müəyyən olunmuş tarixi konsepsiyası, ümummilli baxışları ilə.

YAP-ın keçdiyi keşməkeşli yollarına nəzər salarkən, həmin tarixləri bir daha xatırlamamaq, ölkəmizin hansı əzab-əziyyətlərdən keçməsini təhlil etməmək olmur. Belə ki, partiyamızın keçdiyi 28 illik şərəfli yol yüz minlərlə insanı ətrafında birləşdirən, tərəfdarlarının sayı 1 milyonu ötən partiyanın fəaliyyətində əhəmiyyətli məqam olmaqla yanaşı, həmçinin ölkəmizin siyasi tarixində əlahiddə hadisə kimi səciyyələnir. O cümlədən, YAP Azərbaycanın üzləşdiyi böhran və fəlakət, xalqın sabaha olan ümidlərinin demək olar ki, qırılmağa başladığı bir dövrdə meydana gəldi, xilaskarlıq missiyası kimi məsuliyyəti daşıyan partiya olaraq Lideri ilə önə çıxdı. Həmin ərəfələrdə ermənilərin Qarabağda başladıqları işğalçılıq siyasəti, ittifaq rəhbərliyinin antiazərbaycan mövqeyi daha acınacaqlı nəticələrlə - respublika başçılarının öz millətinə qarşı xəyanətkar münasibəti ilə davam etdirilirdi.

## Hədəf də, istinadgah da xalqın nəzərində çoxdan müəyyənləşmişdi

Bu da azmış kimi, 1990-cı illərin əvvəllərində və dövlət müstəqilliyi qazanıldıqdan sonra yaranan bəzi partiyalar isə ölkəni ağır iqtisadi və siyasi böhrandan nəinki qurtara bilmədilər, əksinə, vəziyyəti daha da ağırlaşdıraraq daha təhlükəli böhran vəziyyətinə çatdırdılar. Həmçinin, "millət", "dövlətçilik" pərdəsi altında anormal idarəetmə metodu ölkədaxili situasiyanı gərginləşdirməklə yanaşı, gələcək perspektivləri də ciddi təhlükə altına salmışdı. Nə xarici siyasət doğru aparılır, nə də hakimiyyətdaxili intriqalar sona çatırdı. Naşı rəhbərlik və onların yarıtmaz idarəçiliyi nəticəsində yaranan kütləvi xaos, qarşısıalınmaz parçalanma dövlətin məhvini reallaşdırmaq üzrə idi. Xüsusilə, Qarabağ cəbhəsində mövcud olan ağrılı nəticələri baş-başa qoyan, silahlı müdaxilə ilə hakimiyyətə çatan AXC-Müsavat iqtidarının fəaliyyəti Azərbaycan vətəndaşını təlaşlandırır, narahat edirdi. Əbəs deyil ki, sözügedən hakimiyyətin ilk günlərindən etibarən Azərbaycanda yeni siyasi gücə böyük ehtiyac yaranmışdı. Artıq hədəf də, istinadgah da xalqın nəzərində çoxdan müəyyənləşmişdi: Böyük dövlət xadimi Heydər Əliyev dühasına həyati ehtiyac yaranmışdı. Məhz ona görə də Azərbaycanın taleyini düşünən insanlar ölkəni böhrandan çıxara biləcək yeni bir partiya yaratmaq təşəbbüsü ilə çıxış etdilər və xalqın sınanmış Lideri Heydər Əliyevin ətrafında birləşdilər.

Xalqın, dövlətin xilasına və gələcəyinə şərəf amili, qələbə və zəfər gerçəkliyi, yenilməzlik qüruru yazan o tarixi günü bir daha xatırlayaq: Təsadüfi deyildi ki, 1992-ci ilin oktyabrında ölkə ziyalıları xalqın iradəsini ifadə edərək, Ümummilli Lider Heydər Əliyevə "Səs" qəzeti vasitəsilə müraciət etdilər. Ulu Öndərimiz, əslində, xalqın çağırışı olan bu müraciətə biganə qalmadı, öz cavab məktubunda Azərbaycan dövlətinin xilas yolunu, müstəqilliyin qorunub-saxlanılması strategiyasını açıqladı. Bizim üçün şərəflidir ki, bu cavab da məhz "Səs" qəzetində dərc olunub.

1992-ci il noyabrın 21-də Naxçıvan şəhərində Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirildi. Azərbaycanın müxtəlif bölgələrindən təəssübkeş qrupların 550-dən artıq nümayəndəsinin iştirak etdiyi möhtəşəm tədbir soyuq qış günündə, zaldakı sərt hava şəraitində baş tutdu. Konfransda Ulu Öndər Heydər Əliyev yeni yaranan partiyanın əsas məqsəd və vəzifələrini, bu partiyanı digər təşkilatlardan fərqləndirəcək xüsusiyyətləri izah etdi, hər bir partiya üzvünün qarşısında dayanan vəzifəni müəyyənləşdirdi. Ulu Öndər Heydər Əliyev bildirirdi ki, Yeni Azərbaycan Partiyasının hər bir üzvünün borcu dövlətin ərazi bütövlüyünü, müstəqilliyini, ictimai asayişi qorumaq, qanunlara tabe olmaq, iqtidarla sivil müxalifətçilik etmək, ölkənin mənafeyini bütün maraqlardan üstün tutmaqdır. Yalnız bu şərtlərə riayət edən şəxs YAP-ın əsl üzvü, partiyanın siyasi xəttini düzgün anlayan və yerinə yetirən təəssübkeş sayıla bilərdi!

## Azərbaycançılıq ideyalarının möhkəm təməli üzərində yaranan Yeni Azərbaycan Partiyası ölkəmizin siyasi həyatına yeni nəfəs verdi, Azərbaycanın siyasi həyatında ümid çırağı yandırdı

Beləliklə, Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə müstəqil Azərbaycan tarixində öz üzərinə böyük missiya götürən və xalqımızın 28 il əvvəlki və mövcüd həyatında mühüm hadisəyə çevrilən Yeni Azərbaycan Partiyası yarandı. Partiyanın yaranması, Azərbaycan xalqının Ulu Öndəri Heydər Əliyevin partiyaya Sədr seçilməsi zəruri tarixi hadisə idi. Azərbaycançılıq ideyalarının möhkəm təməli üzərində yaranan Yeni Azərbaycan Partiyası ölkəmizin siyasi həyatına yeni nəfəs verdi, Azərbaycanın siyasi həyatında ümid çırağı yandırdı.

YAP-ın ölkədəki digər çoxsaylı siyasi təşkilatlardan əsas fərqlərindən biri də bu idi ki, partiya müxalifət siyasi təşkilatı kimi yaransa da indiki bəzi müxalifət partiyalarından fərqli olaraq, Azərbaycan dövlətçiliyinə, milli maraqlara müxalifətdə deyildi. Yeni Azərbaycan Partiyası o zamankı iqtidara müxalifətdə olmuşdu, çünki bütün Azərbaycan xalqı o dövrdə ölkəni təhlükəli həddə çatdıran iqtidara müxalifətdə idi. Ona görə də sonrakı illərdə özlərini "insan hüquqlarının müdafiəçiləri", "azadlıq aşiqləri", "demokratiya carçıları" adlandıran o zamankı məlum iqtidar nümayəndələri Ulu Öndər Heydər Əliyevin adı ilə bağlı bir partiyanın yaranmasından və bütün Azərbaycanda sürətlə təşkilatlanmasından hədsiz qorxuya düşmüşdülər. Xalqın Heydər Əliyevin zəkasına, idarəçilik qabiliyyətinə, müdrikliyinə olan inamı, bu partiyanın çox tezliklə milyonların partiyasına çevriləcəyinə heç bir şübhə yeri qoymurdu. Məhz bu reallıq o dövrkü səriştəsiz rəhbərliyi qane etmirdi və öz hakimiyyətlərini qoruyub saxlamaq üçün bütün vasitələrdən istifadə edərək YAP-ın təşkilatlanmasına maneçiliklər törətməyə çalışırdılar. Lakin o dövrün hakimiyyət dairələrinin yaratdığı əngəllər, əsassız təzyiqlər bu yola qədəm qoyan insanların əzmini və iradəsini qıra bilmədi. Respublikanın ən ucqar dağ kəndlərində belə partiyanın yaranması

## YAP-28

# Yalnız qələbələrə layiq olan XALQIN PARTİYASI!

xəbərini eşidən sadə əmək adamları, bütün ziyalılar Heydər Əliyevin yenidən siyasət meydanına qayıtmasını böyük ruh yüksəkliyi ilə qarşılayırdılar.

**Xalq yaxşı bilirdi ki, xilaskarlıq missiyasını yalnız təkrarsız şəxsiyyət Heydər Əliyev üzərinə götürə bilər**

Beləliklə, Yeni Azərbaycan Partiyasının yaranması xalqın istək və arzularının təcəssümü, yekdil iradəsinin ifadəsi kimi tarixi reallıqdan irəli gəlmiş, bu təşkilat vətənpərvərlik, əqidə birliyi, dövlət müstəqilliyi və suverenlik, azərbaycançılıq ideyalarının möhkəm təməli üzərində qurulub inkişaf etmişdir. Həmçinin, YAP-ın ideya məfkurəsini təşkil edən müstəqil dövlətçilik, qanunçuluq, azərbaycançılıq, vətəndaş həmrəyliyi və sosial ədalət prinsipləri partiyanın qarşısında duran vəzifələrin həyata keçirilməsinin ideya təminatı olmaqla yanaşı, Azərbaycanın siyasi gələcəyini, inkişaf prioritetlərini də şərtləndirirdi. Ulu Öndərin həyata keçirdiyi siyasət hər bir fərdin maraq və mənafeyini özündə ehtiva etdiyindən, qısa zamanda cəmiyyətin ən müxtəlif zümrələrinin Yeni Azərbaycan Partiyasına sürətli axını başlamış, onların ictimai-siyasi həyatda fəallığı əhəmiyyətli dərəcədə artmışdı.

Bir-birinin ardınca respublikamızın rayon və bölgələrində Yeni Azərbaycan Partiyasının rayon təşkilatlarının təsis konfransları keçirildi. Cəmi bir il ərzində Azərbaycanın 67 rayon və şəhərində Yeni Azərbaycan Partiyasının rayon və şəhər təşkilatları, 1500-ə qədər kənd və qəsəbə ilk təşkilatları yarandı.

Digər tərəfdən, YAP-ın qısa müddətdə cəmiyyətdə həlledici çoxluq tərəfindən ölkəni idarə etməyə qadir alternativsiz qüvvə kimi qəbul olunması da məhz dahi şəxsiyyət Heydər Əliyevin fenomenal liderlik və idarəçilik keyfiyyətləri ilə şərtlənmişdi. 1993-cü ilin məlum iyun böhranı zamanı ölkənin taleyinə biganə olmayan insanlar yaxşı başa düşürdülər ki, Azərbaycanı sürətlə fəlakətə sürükləyən məkrli planların qarşısını almağa, düçar olduğu bəlalardan qurtarmağa qadir yeganə şəxsiyyət məhz Heydər Əliyevdir. İyun ayının 15-də Heydər Əliyevin Azərbaycan Ali Sovetinin Sədri seçilməsi isə ölkədəki kütləvi inamsızlıq, xaos və hərc-mərclik mühitinin aradan qalxmasına, siyasi gərginliyin tədricən azalmasına, sözün həqiqi mənasında, xalqın böyük fəlakətlərdən qurtulmasına real zəmin yaratdı. Yeni Azərbaycan Partiyasının yaranmasından cəmi 6 ay sonra Ümummilli Lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə dönüşünün kökündə dayanan əsas həqiqət Azərbaycan xalqının fəlakətlərdən xilas olmaq ümidlərini, gələcəklə bağlı arzularını Heydər Əliyevlə və Yeni Azərbaycan Partiyası ilə bağlamaq arzusu idi. Xalq yaxşı bilirdi ki, xilaskarlıq missiyasını yalnız təkrarsız şəxsiyyət Heydər Əliyev öz üzərinə götürə bilər.

Məhz bu xilaskar missiyanın nəticəsi kimi Azərbaycan xalqı 1993-cü ilin oktyabrında Yeni Azərbaycan Partiyasının Sədri Heydər Əliyevə etimad göstərərək Onu özünün Prezidenti seçdi. Ulu Öndər Heydər Əliyevin Prezident seçilməsindən sonra Yeni Azərbaycan Partiyasının statusu yeni şəraitə uyğun olaraq dəyişmiş, ölkənin siyasi həyatında onun tutduğu mövqe möhkəmlənmiş, kütləvi siyasi qüvvəyə çevrilərək ictimai həyatın bütün sahələrində tərəqqiyə nail olmaq məqsədilə yüksək fəallıq nümayiş etdirməyə başlamışdır. Bununla da tarixi zərurətdən yaranan YAP müstəqilliyimizin qorunmasında, dövlətçiliyimizin möhkəmləndirilməsində, tənəzzül etmiş iqtisadiyyatımızın inkişaf etdirilməsində və demokratik təsisatların bərqərar olunmasında siyasi flaqman rolunu hakim siyasi partiya olaraq öhdəsinə götürdü. Ümumiyyətlə, Ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı və siyasi sabitliyin tam təmin olunması ilə Azərbaycan cəmiyyətində dövlətçilik ideyalarının bərqərar olması fundamental əhəmiyyət kəsb etməyə başladı və gələcək iqtisadi inkişaf prioritetləri müəyyənləşdirildi. Heydər Əliyevin xalqı sabaha daha inamlı baxmağa səsləyən fədakarlığı bu böyük şəxsiyyətin "şah əsəri" hesab etdiyimiz doğma Azərbaycanımızın dinamik və davamlı inkişafına da yol açdı.



**Azərbaycan Prezidenti cənab İlham Əliyev ölkəmizin əldə etdiyi böyük uğurların müəllifinin mövcud iqtidar və hakimiyyətin siyasi istinadgahı olan Yeni Azərbaycan Partiyası olduğunu bəyan edib**

Bu gün hər bir azərbaycanlı sevinir və qürurlanır ki, Ulu Öndər Heydər Əliyev ideyaları möhtərəm Prezidentimiz, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Hələ 1995-ci ildə partiyanın namizədi kimi parlament seçkilərində qələbə qazanan cənab İlham Əliyev YAP-ın gəncləşməsində, fəaliyyətinin daha effektiv qurulmasında müstəsna xidmətlər göstərmişdi. Bu baxımdan təsadüfi deyil ki, YAP-ın birinci qurultayında təşkilatın çoxminli üzvlərinin istəyinə uyğun olaraq, cənab İlham Əliyev partiya Sədrinin müavini, ikinci qurultayda isə Sədrin birinci müavini seçilmişdi.

Real həqiqətdir ki, tarixi şəxsiyyətin yolunu, ideyalarını yalnız tarixi şəxsiyyətlər davam etdirə bilər. Məhz bu səbəbdəndir ki, dünya şöhrətli dövlət xadimi, Ulu Öndər Heydər Əliyev hələ 2003-cü ildə siyasi uzaqgörənliklə xalqa müraciətində hakimiyyət sükanının cənab İlham Əliyevə etibar olunmasını məsləhət bildi. Ümummilli Lider Heydər Əliyev 2003-cü ilin oktyabr ayında Azərbaycan xalqına müraciətində cənab İlham Əliyevlə bərabər, həm də Yeni Azərbaycan Partiyasına yüksək önəm verdiyini qeyd etmiş, xalqa ən düzgün seçim ünvanı kimi məhz İlham Əliyevi və Yeni Azərbaycan Partiyasını göstərmişdi: "Üzümü sizə - həmvətənlərimə tutaraq qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası Sədrinin birinci müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir".

2003-cü, 2008-ci, 2013-cü və 2018-ci illərdə Heydər Əliyev siyasi kursunun alternativsiz davamçısı kimi Prezident seçkilərinə qatılan cənab İlham Əliyevin xalqın iradəsinə söykənən qələbəsi həm də Yeni Azərbaycan Partiyasının zəfəri, nailiyyəti idi. 2005-ci ilin mart ayında Yeni Azərbaycan Partiyasının III qurultayının nümayəndələri çox şərəfli bir seçimə imza ataraq, cənab İlham Əliyevi təşkilata rəhbər seçdilər. Bu onu deməyə tam əsas verirdi ki, Yeni Azərbaycan Partiyasının yüz minlərlə üzvü və sayı milyonu keçən təəssübkeşi, yeni Sədrini yekdilliklə dəstəkləyir və Onun ətrafında sıx birləşərək, yeni Azərbaycan quruculuğunda fəal iştirak edir. Ötən müddət ərzində özünü tam doğruldan bu inam həm də Yeni Azərbaycan Partiyasının növbəti böyük nailiyyətlər əldə etməsinə əsas zəmin oldu.

Partiyamız öz ətrafında cəmiyyətin intellektual təbəqəsini birləşdirir ki, bu da çox mühüm bir göstəricidir. Partiyanın Gənclər Birliyi və Qadınlar Şurası da təşkilatın aparıcı qolları olaraq ölkənin ictimai-siyasi həyatında çox fəal iştirak edirlər.

Bu gün həm Yeni Azərbaycan Partiyasında, həm də müstəqil Azərbaycanda Heydər Əliyev ideyaları şərəflə, məsuliyyətlə, fədakarlıqla davam etdirilir, nəticəsi misilsiz nailiyyətlər olan alternativsiz siyasi kursla müşayiət olunur. Bu missiya əsasını Ulu Öndərin qoyduğu müvəffəqiyyətlərin, milli inkişaf strategiyasının daha geniş miqyaslı davamıdır. Bəli, məhz milli inkişaf və milli dəyərlər!

Azərbaycan Prezidenti cənab İlham Əliyev ölkəmizin əldə etdiyi böyük uğurların müəllifinin mövcud iqtidar və hakimiyyətin siyasi istinadgahı olan Yeni Azərbaycan Partiyası olduğunu bəyan edib. Ümummilli Liderimiz Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz çox böyük uğurlar qazandı.

**Bu qələbə həm Prezident, həm Yeni Azərbaycan Partiyasının Sədri, həm də Ali Baş Komandan olaraq İlham Əliyev xarizmasının, praqmatikliyinin məntiqi nəticəsidir!**

Son 17 ilin statistikasına və siyasi xronikasına baxmaq kifayət edir ki, Azərbaycan Respublikasının uğurlu inkişaf mənzərəsi hər kəsin gözü önündə canlansın. Bu gün Azərbaycanın tərəqqisi dünyanın hər bir guşəsindən görünür. Bu həqiqətin əsasını cənab İlham Əliyevin xalqın rifahı naminə həyata keçirdiyi uğurlu və ardıcıl siyasət təşkil edir.

Və bu tarixi xronologiyanın ən əsas mahiyyəti məqalənin əvvəlində də qeyd etdiyim Qarabağımızın işğaldan azad edilməsidir. Bu qələbə həm Prezident, həm Yeni Azərbaycan Partiyasının Sədri, həm də Ali Baş Komandan olaraq, İlham Əliyev xarizmasının, prqamatikliyinin məntiqi nəticəsidir. Onun xalqına, Ordusuna sonsuz güvənci və bu güvəncin qarşılıqlı olaraq cavablandırılması bizi dünyaya səs salan qələbə ilə mükafatlandırdı. Bu qələbə həm də Heydər Əliyev tarixi siyasi məktəbinin tələbi kimi ömür səhifəmizə yazıldı. Çünki Ulu Öndərimiz Heydər Əliyev Azərbaycanda təkrarsız, unikal dövlət idarəçilik məktəbi yaratdı və onu xalqımız üçün zəngin bir irsə çevirdi. Biz bu gün böyük qürur hissi ilə deyə bilərik ki, müasir müstəqil Azərbaycan dövləti öz başlanğıcını 1992-ci il noyabrın 21-dən - Yeni Azərbaycan Partiyasının yaradılması tarixindən götürüb.

Daha bir haşiyə çıxaraq hər birimizin şahidi olduğumuz bir mühüm məqama da toxunmaq istərdim. Bu məqam mili qürurumuzun, mədəniyyətimizin irsi varlığı olan Şuşa şəhərimizin azad olunması ilə bağlı cənab Ali Baş Komandan İlham Əliyevin Ulu Öndər Heydər Əliyevin məzarı qarşısına gedərək, bu xoş xəbəri məruzə etməsi oldu. Bu, həqiqətən də tarixi hadisə idi və bir daha sübut olundu ki, Heydər Əliyev siyasi məktəbi Azərbaycanımızı bundan sonrakı illərdə daha böyük, daha əzəmətli qələbələrə doğru aparacaq. Cənab Prezident İlham Əliyev Ulu öndər Heydər Əliyevin ata vəsiyyətini yerinə yetirdi! Və bizlər nə qədər xoşbəxtik ki, əldə olunan qələbələrin hər birində artıq 28-ci yaşına qədəm qoymuş Yeni Azərbaycan Partiyası da var və Ulu Öndərin miras qoyduğu siyasətin həyata keçirilməsində öz rolunu almaqdadır.

Bu münasibətlə partiyamızın Sədri, Prezident və Ali Baş Komandan İlham Əliyev cənabları başda olmaqla, bütün partiyadaşlarımı qələbə və Yeni Azərbaycan Partiyasının 28-ci ildönümü münasibətilə təbrik edir, qarşıdakı illərdə daha nəhəng tarixi qələbələrə imza atmalarını arzulayıram.

# YAP Səbail rayon təşkilatında Partiyanın 28-ci ildönümü münasibətilə videokonfrans keçirildi





***Noyabrın 20-də YAP Səbail rayon təşkilatında Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun İkinci Qarabağ Müharibəsində qazandığı Şanlı qələbələr və Yeni Azərbaycan Partiyasının yaranmasının 28-ci ildönümü münasibətilə videoformatda konfrans keçirildi. Konfransda Rayon Şurası və İdarə Heyətinin üzvləri, partiya veteranları və fəal gənclər iştirak etdilər.***

İlk öncə, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ağdam rayonunun işğaldan azad olunması münasibətilə Azərbaycan xalqına müraciəti böyük coşqu və ruh yüksəkliyi ilə dinlənildi. Videokonfransa sədrlik edən YAP Səbail rayon təşkilatının sədri prof. Şəmsəddin Hacıyev Ali Baş Komandan başda olmaqla bütün Azərbaycan xalqını müstəqil Azəbaycanın hərb tarixinə qızıl hərflərlə əbədi həkk olunan Vətən müharibəsindəki şanlı qələbələr münasibətilə ürəkdən təbrik etdi. Azərbaycanın ərazi bütövlüyü uğrunda qəhrəmancasına döyüşən, düşməni Azərbaycan torpaqlarından "iti qovan kimi qovan" və şəhid olan Vətənin qəhrəman övladlarının əziz xatirəsi bir dəqiqəlik sükutla və dərin ehtiramla yad olundu, döyüşlərdə yaralanan hərbiçilərimizə Allahdan şəfalar arzulandı.

Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun möhtəşəm Zəfər tarixi yazdığını, XXI əsrdə yeni bir müharibə modelini təqdim etdiyini vurğulayan Ş.Hacıyev müzəffər Azərbaycan Ordusunun 44 günlük qələbə salnaməsinin dövlətçilik tariximizin son yüz ildə ən şərəfli və ən qürurlu səhifəsi olduğunu xüsusi qeyd etdi. Bildirildi ki, Azərbaycan xalqının milli oyanışı, özünəqayıdışı və milli fəxarət rəmzinə çevrilən İkinci Qarabağ müharibəsi ölkəmizdə olduğu kimi bütün Türk dünyasında da böyük coşqu və ruh yüksəkliyi yaratdı. Azərbaycan xalqının bütün nümayəndələri - ictimai mənşəyindən, siyasi mövqeyindən, dinindən, cinsindən, yaşından, tutduğu vəzifədən asılı olmayaraq Ali Baş Komandan, möhtərəm Prezidentimizin ətrafında sıx birləşərək əzəli düşmənimizin başını əzən "dəmir yumruğ"a çevrildi, Azərbaycanın haqq səsinin bütün dünyaya çatdırılmasına nail olundu. Bu qələbə zaman-zaman ermənilərin uydurduqları yalanları, mifləri, "böyük ermənistan" xülyalarını da darmadağın etdi, onların alçaq, qorxaq, xəyanətkar, faşist və terrorçu xislətini və bütövlükdə "erməniçilik" ideologiyasının əsl simasını və mahiyyətini düyayaya nümayiş etdirdi. Vətən torpaqlarının mənfur düşmən tapdağından azad olunması və Azərbaycanın qətiyyətli, inamlı qələbəsi ilə yekunlaşan İkinci Qarabağ Müharibəsi Azərbaycan xalqının qalib, müzəffər, cəsur, mərd və qəhrəman bir xalq olduğunu bir daha sübut etdi, bütün şəhidlərimizin, mənfur ermənilərin Türk millətinə, Azərbaycan xalqına qarşı törətdikləri qanlı soyqırımların qurbanlarının qisasının alınmasını və müstəqil Azərbaycanın ərazi bütövlüyünün parlaq zəfərlərlə bərpa edməsini təmin etdi.

Ş.Hacıyev döyüş meydanında Azərbaycan Türkünün gücünü, qələbə əzmini, döyüş ruhunu nümayiş etdirən, Ali Baş Komandanımız başda olmaqla müzəffər Ordumuzun bütün komandanlıq heyətini, böyük qəhrəmanlıqlar göstərən Azərbaycan zabit və əsgələrini bir daha təbrik etdi və bildirdi ki, Azərbaycan xalqı əlində silah, hərb meydanında, əsl Türk oğluna xas olan böyük cəsarət və mərdliklə vicdan, namus borcunu ödədi və şanlı Azərbaycan bayrağını işğaldan azad olunan torpaqlarımızda yüksək fəxarətlə dalğalandırdı. Prezident İlham Əliyevin hərbi, siyasi və diplomatik məharətinin nəticəsidir ki, 20 noyabr 2020-ci il tarixində Ağdam rayonu heç bir güllə atılmadan, heç bir əsgər yaralanmadan, qansız-qadasız məhz bu gün işğaldan azad olundu və Ali Baş Komandanımızın müharibənin ilk günündən irəli sürdüyü şərtə uyğun olaraq, işğal altında qalan son iki rayonumuz - Kəlbəcər və Laçın da təsdiqlənmiş qrafik üzrə 1 dekabr tarixinədək Azərbaycana geri veriləcəkdir. Dağlıq Qarabağ ətrafındakı 7 rayonumuzun, Hadrutun və Qarabağın incisi Şuşanın işğaldan azad olunması sözün əsl mənasında müzəffər Ali Baş Komandanımızın şəxsi şücaəti, cəsarəti, dünya rəhbərləri qarşısında həm hərbi meydanda, həm informasiya məkanında, həm də siyasi və diplomatik arenada nümayiş etdirdiyi bilik, məharət, qabiliyyət, zəka və müdriklik nəticəsində mümkün oldu. Sədr xüsusi vurğuladı ki, müharibə nəticəsində sanki bütün xalq, hər bir Azərbaycan vətəndaşı Liderimizi, Prezidentimizi bir daha yenidən kəşf etdi, Onun dahiliyinin, qətiyyətli xarakterinin, uzaqgörən strateq və böyük Komandan olduğunun bir daha şahidi oldu və İlham Əliyev rəşadətli, MÜZƏFFƏR SƏRKƏRDƏ olaraq Azərbaycan xalqının qəlbində özünün əbədiyaşar heykəlini ucaltdı.

Ş.Hacıyev diqqətə çatdırdı ki, bu Vətən müharibəsi Azərbaycan xalqına böyük mənəvi qazanclar bəxş etdi. Azərbaycan xalqı bir yumruq kimi bir nöqtəyə vurmağı bacardı, Türk millətinin cəsur, qorxmaz boyu kimi özünü bir daha təsdiq etdi, milli ruhunu özünə qaytardı, erməni vandalizmini, körpə, uşaq, qadın, qoca qatili olan əzəli düşmənimizin əsl terrorist, faşist içüzünü dünyaya nümayiş etdirdi və ən əsası dostunu da, "dost" görünməyə çalışan ikiüzlü riyakarları da yaxşı tanıdı. Qeyd olundu ki, Azərbaycan xalqının bu taleyüklü günlərində qardaş Türkiyənin mənəvi, siyasi dəstəyini, qardaş-dost Pakistanın və Türk dövlətlərinin, TÜRKPA üzvlərinin, İsrailin, qonşu Gürcüstan və İran İslam Respublikasının, Ukraynanın, Rusiyanın neytrallığını qorumasını və bu məsələdə ədalətli mövqe tutmasını, Qoşulmama Hərəkatına üzv olan ölkələrin Azərbaycanı dəstəkləyən birmənalı mövqeyini, ATƏT-in Minsk Qrupunun ədalətli mövqe bildirən ölkələrinin dəstəyini biz heç vaxt unutmamalıyıq və tarixin bu dərslərindən müvafiq nəticələr çıxartmalıyıq.

Azərbaycanda sarsılmaz Xalq-İqtidar-Ordu birliyinin mövcud olduğunu bir daha vurğulayan Ş.Hacıyev bildirdi ki, Azərbaycan üçün tamamilə yeni möhtəşəm dövr başlayır. İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqı erməni vandallarının viran qoyduğu torpaqlarda Azərbaycanın mədəni irsini bərpa edəcək, kənd və şəhərlərimizi yenidən quracaq. Möhtərəm Prezidentimizin dediyi kimi: "Qarabağı cənnətə çevirəcəyik" və bütün bu işlərdə Yeni Azərbaycan Partiyasının üzvləri də sözsüz ki, yaxından iştirak edəcəklər.

Ş.Hacıyev Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə qurulan və Azərbaycanın ictimai-siyasi həyatında əvəzsiz xidmətləri olan Yeni Azərbaycan Partiyasının yaranmasının 28-ci ildönümü münasibətilə partiyanın bütün üzvlərini təbrik etdi. Qeyd olundu ki, əgər 1990-cı illərin əvvəllərində Ulu Öndər Heydər Əliyev hakimiyyətə gəlməsəydi və Onun xilaskarlıq missiyası olmasaydı Azərbaycan xalqı üçün bugünki bu qələbələr mümkün olmazdı. Ölkəmizdə ordu quruculuğunun, ümumiyyətlə bütün sahələrdə kompleks, sistemli inkişafın bünövrəsi məhz Heydər Əliyev tərəfindən qoyuldu. Yeni Azərbaycan Partiyasının yaranmasını şərtləndirən zərurətlər, 1988-ci ildən etibarən Azərbaycan xalqının meydan hərəkatları, milli azadlıq uğrunda mübarizəsi, Heydər Əliyevin Naxçıvan Muxtar SSR-də müstəqilliyin əldə olunması istiqamətindəki fəaliyyəti, Azərbaycanın 91 nəfər ziyalısının Heydər Əliyevə tarixi müraciəti və o mürəkkəb, ziddiyyətli dövrdə cəsur, ölkəsini düşünən, dövlətinə, torpağına biganə olmayan fədakar insanların mübarizəsi haqqında ətraflı məlumat verən Ş.Hacıyev diqqətə çatdırdı ki, 1992-ci il noyabrın 21-də Naxçıvanda təsis konfransı keçirilən Yeni Azərbaycan Partiyasının yaranması Azərbaycanın gələcək inkişaf taleyində həlledici rol oynadı və həm Heydər Əliyevin hakimiyyətdə olduğu 10 il, həm də Ulu Öndərin layiqli siyasi davamçısı, möhtərəm Prezidentimiz İlham Əliyevin ölkəyə rəhbərliyi dövründə görülən möhtəşəm işlərdə Yeni Azərbaycan Partiyasının misilsiz xidmətləri olmuşdur. Şərəfli inkişaf yolu keçən Yeni Azərbaycan Partiyası müstəqillik dövründə ölkəmizin ictimai-siyasi həyatında aparıcı rol oynayır, partiyanın sıraları ildən-ilə həm kəmiyyət, həm keyfiyyət baxımından genişlənir, hazırda YAP üzvlərinin sayı 760000-dən çoxdur və Yeni Azərbaycan Partiyası Cənubi Qafqazın ən mütəşəkkil siyasi qüvvəsidir. Bu da təsadüfi deyildir, çünki partiyanın ilk Sədri Ümummilli Lider Heydər Əliyev olmuşdur, hazırda isə partiyanın sədri, müzəffər Ali Baş Komandanımız İlham Əliyevdir. Partiyanın Sədr müavini Birinci vitse-prezident xanım Mehriban Əliyevadır. Müstəqil Azərbaycanın tarixinə adını qızıl hərflərlə yazdıran görkəmli dövlət xadimlərinin rəhbərlik etdiyi partiyanın üzvü olmaq hər bir vətəndaşımız üçün böyük şərəf və qürur mənbəyidir. YAP üzvləri ölkəmizin ictimai-siyasi həyatında öz sözlərini bütün dövrlərdə deyiblər və bundan sonra da deyəcəklər.

"Ekspertlər" (Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası) ərazi ilk partiya təşkilatının sədri Orxan Ağayev qələbələr, bayramlar münasibətilə konfrans iştiriakçılarını təbrik edərək bildirdi ki, Ali Baş Komandanın idarəçilik məharəti və hərbi şücaəti nəticəsində Azərbaycan xalqının məfkurəsi tamamilə dəyişdi, biz artıq mübariz, güclü, qalib xalqıq və bu yol Ulu Öndər Heydər Əliyev yoludur.

Ağdamlıları və bütün Azərbaycan xalqını təbrik edən 132-134 saylı Təhsil Kompleksinin direktoru, Əməkdar müəllim Sara Xanlarova bildirdi ki, Prezident İlham Əliyevin qazandığı şanlı qələbələr əsrlərin qələbəsidir, uzun illər Azərbaycan xalqının torpaq uğrunda verdiyi onminlərlə şəhidlərimizin qisasıdır. İlham Əliyev Azərbaycanın şanlı tarixini yazaraq, özü də xalqımızın tarixi qəhrəmanına çevrildi. Qeyd olundu ki, 132-134 saylı Təhsil Kompleksinin məzunları arasında həm Birinci, həm də İkinci Qarabağ müharibəsində şəhid olan qəhrəmanlarımızın əziz xatirəsi əbədi yaşadılacaq və onların qəhrəmanlıq dastanı nəsildən-nəsilə ötürüləcəkdir.

"Təhsil tədqiqatçılar" (Azərbaycan Təhsil İnstitutu) ərazi ilk partiya təşkilatının sədri, şəhid qardaşı Piralı Əliyev qeyd etdi ki, Ali Baş Komandan İlham Əliyev Azərbaycan xalqının milli ruhunu özünə qaytardı, qaçqınlarımızın, məcburi köçkünlərimizin, şəhidlərimizin qisasını mənfur düşməndən aldı, gözükölgəli xalqın başını ucaltdı. Ulu Öndər Heydər Əliyev Horadiz əməliyyatı ilə Birinci qayıdışın təməlini qoydu, İlham Əliyev isə Qarabağa Böyük qayıdışı reallaşdırdı.

"Akademik Filarmoniya" (M.Maqomayev adına Akademik Filarmoniya) ərazi ilk partiya təşkilatının sədri Elçin Abbasov Azərbaycan xalqının şanlı qələbələrini təbrik etdi, şəhidlərimizin ruhu qarşısında ehtiramını bildirdi və Zəfər marşı ilə dönən qazilərimizin cəmiyyətimiz tərəfindən böyük diqqət və qayğı ilə əhatə olunmalarının vacibliyinə diqqət çəkdi. Bildirildi ki, Azərbaycan xalqı bundan sonra da bu qələbə ruhunu yaşatmalıdır.

YAP Səbail rayon təşkilatının Sədr müavini Mehman İsmayılov Azərbaycan xalqına göz aydınlığı verərək Ali Baş Komadanımıza dərin minnətdarlığını ifadə etdi. Xüsusi qeyd olundu ki, hər bir azərbaycanlı bu gün yüksək fəxarət yaşayır, çünki, Azərbaycanın işğaldan azad olunan torpaqlarında müqəddəs azan oxunur, himnimiz səslənir, üçrəngli bayrağımız dalğalanır. Bu xalqımızın böyük xoşbəxtçiliyidir.

189-190 saylı orta məktəbin direktoru Ceyran Kuliyeva bildirdi ki, Azərbaycan xalqı xoşbəxtdir ki, İlham Əliyev kimi dərin zəkalı, yüksək idarəçilik məharəti olan, polad iradəli sərkərdəsi var. Allahın təqdiridir ki, Qarabağın göz bəbəyi, alınmaz qala olan Şuşa şəhəri məhz 8 noyabr - Ulu Öndər Heydər Əliyevin Zərifə xanım Əliyeva ilə ailə həyatı qurduğu tarixdə işğaldan azad olundu. Bəlkə də bu böyük məhəbbətdən dünyaya gələn övladın valideynlərinin ruhuna bir hədiyyə idi. Nə qədər ki, Azərbaycan xalqına İlham Əliyev rəhbərlik edir, bu millətə zaval yoxdur. Çıxış edən YAP Səbail rayon təşkilatının Aparat rəhbəri dos. Zəfər Bayramov Ali Baş Komandanımızı, Azərbaycan Ordusunu tarixi qələbələr münasibətilə ürəkdən alqışladı və Azərbaycan xalqının işıqlı gələcəyinə dair arzularını ifadə etdi.

YAP Səbail rayon təşkilatının İdarə Heyətinin üzvü, "91-lər"dən Hacan Hacıyev bildirdi ki, Ali Baş Komandan İlham Əliyevin imza atdığı bu şanlı, tarixi zəfərlər haqqında uzun illər, əsrlər boyu danışılacaq, Qarabağ müharibəsi tarixçilər, siyasi-hərbi mütəxəssislər tərəfindən geniş araşdırılacaqdır. Vurğulandı ki, Azərbaycan Ordusunun 44 günlük Zəfər yürüşü Azərbaycanın qızıl əbədi tarixinə çevriləcək. 239 saylı orta məktəbin direktoru Sədaqət Əzimova Azərbaycan xalqını tarixi qələbələr münasibətilə təbrik etdi. Məktəbin məzunları arasında qəhrəmanlıqla döyüşən, şəhid olan hərbiçilərimizin əziz xatirəsinin əbədi yaşadılması istiqamətində görülən işlər haqqında danışan S.Əzimova yaralı hərbiçilərimizə göstərilən diqqət və qayğını xüsusi qeyd etdi.

"Vərəm həkimləri" (3 saylı Vərəm əleyhinə dispanser) ərazi ilk partiya təşkilatının üzvü Günel Hacıyeva Azərbaycan xalqına Böyük Qələbə sevinci bəxş edən Ali Baş Komandana, Azərbaycan hərbiçilərinə təşəkkür etdi və Azərbaycan xalqına bundan sonra da şanlı zəfərlər, xoşbəxt, firavan həyat arzuladı. Sonda Konfrans iştirakçıları Azərbaycan xalqını bir daha təbrik etdilər, "Yaşasın Ali Baş Komandanımız!", "Eşq olsun Azərbaycan Ordusuna!", "Qarabağ Azərbaycandır!" şüarlarını səsləndirdilər və Azərbaycanın şanlı qələbələrini alqışladılar.

***Rəfiqə HÜSEYNOVA***

# "Qələbəmizin qazanılmasında milli birliyimizin və həmrəyliyimizin çox böyük rolu var"

## YAP Ağdaş rayon təşkilatının sədri, Milli Məclisin deputatı Cavid Osmanovun yap.org.az-a müsahibəsi:

***- Cavid müəllim, bu gün Azərbaycan cəmiyyətində möhtəşəm qələbə əhval-ruhiyyəsi hökm sürür. Bu barədə sizin düşüncələrinizi bilmək istərdik...***

-Vətən müaharibəsində Azərbaycan xalqı böyük qələbə qazandı. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu, qəhrəman əsgər və zabitlərimiz 44 gün ərzində böyük şücaət göstərərək bu qələbəni təmin etdilər. Bu müqəddəs mübarizədə canlarını qurban vermiş bütün şəhidlərimizin ruhu qarşısında baş əyirəm.

Qeyd edim ki, Azərbaycan sentyabrın 27-də başlamış əkshücum əməliyyatlarını müvəffəqiyyətlə başa vurdu, Vətən müharibəsi bizim böyük zəfərimizlə başa çatdı. Bununla da, Azərbaycan son iki yüz illik tarixində müharibədən ərazi itkisi ilə yox, ərazi bütövlüyünü bərpa edərək çıxır. Qələbəmizin əldə olunmasında mühüm amillərdən biri də tarixi şəhərimiz olan Şuşanın işğaldan azad edilməsi oldu. Şuşanın azad edilməsindən bir gün sonra - Dövlət Bayrağı Günündə daha 72 yaşayış məntəqəsinin, ümumilikdə isə 300-dən çox yaşayış məntəqəsinin işğaldan azad edilməsi Nikol Paşinyanı məcbur etdi ki, noyabrın 10-da Rusiya Prezidenti, Azərbaycan Prezidenti və Ermənistanın baş naziri arasında bəyanatı imzalasın. Hesab edirəm ki, bu bəyanat Ermənistanın hərbi kapitulyasiyası deməkdir və Azərbaycana maksimum sərf edən sənəddir. Bu bəyanat uzun illər davam edən işğala son qoyur. Razılaşmaya əsasən, Ermənistan öz üzərinə Kəlbəcər, Laçın və Ağdam bölgələrindəki işğalçı qoşunlarının çıxarılması barədə öhdəliklər götürüb.Artıq noyabrın 20-də Ağdam rayonu boşaldılıb, bu torpaqda Azərbaycan bayrağı dalğalanır. Yaxın günlərdə isə Kəlbəcər və Laçın rayonları da işğaldan dinc yolla azad ediləcək.

Beləliklə, məcburi köçkün olan insanlarımızın 30 illik həsrətinə son qoyulur, onlar öz doğma torpaqlarına qayıdacaqlar. Təkcə onlar yox, Dağlıq Qarabağ ərazisindən məcburi köçkün olan vətəndaşlarımızın da doğma yurdlarına qayıtmaları təmin olunacaq. Vacib bir məqam da ondan ibarətdir ki, imzalanmış bəyanatda Dağlıq Qarabağın statusu haqqında bir kəlmə də yoxdur. Bu o deməkdir ki, Qarabağa heç bir status, muxtariyyət verilmir. Eyni zamanda, Naxçıvanın Azərbaycanın əsas hissəsi ilə əlaqəsi bu sənəddə təsbit edilir. Bununla da, Naxçıvanı Azərbaycanın əsas hissəsi ilə quru yollarla birləşdirmə istiqamətində tarixi addım atıldı. Bununla da, Naxçıvanın 30 illik blokadasına son qoyulur, eyni zamanda, türk dünyasının yerüstü tranzit-rabitə əlaqələri bərpa edilir.

İmzalanmış bəyanata əsasən,



münaqişə tərəflərinin razılaşmalara əməl etməsinə nəzarətin səmərəliliyinin artırılması məqsədilə atəşkəsə nəzarət üzrə sülhməramlı mərkəzin yaradılması böyük əhəmiyyət kəsb edir. Bu mərkəzdə Rusiya və Türkiyə hərbçiləri fəaliyyət göstərəcək. Bu o deməkdir ki, Türkiyə rəsmi qaydada bu münaqişənin gələcək həlli və atəşkəsə nəzarət etmək işində rol oynayacaq. Yəni bölgədə gələcək əməkdaşlıq formatında Türkiyə və Rusiya iştirak edəcək. Hər iki ölkə bizim üçün dost, qonşu ölkədir. Bununla da, başqa kənar oyunçuların bölgədə tərəf olmaq cəhdləri aradan qalxır.

Bütövlükdə, 44 günlük Vətən müharibəsi Azərbaycanın gücünü, qüdrətini bütün dünyaya göstərdi. Xüsusilə, qeyd etmək istəyirəm ki, bu dövrdə Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev həm hərb meydanında, həm diplomatik müstəvidə, həm də informasiya müharibəsində böyük üstünlük nümayiş etdirdi. Təbii ki, qazandığımız qələbədə bu amil müstəsna rol oynayır.

***-Vətən müharibəsində qazanılan qələbədə ölkəmizdə mövcud olan milli birlik və cəmiyyətimizdəki ruh yüksəkliyinin əhəmiyyətini necə dəyərləndirirsiniz?***

- Ümumiyyətlə, 44 günlük müharibədə cəbhədə ordumuzun uğurlar qazanması ilə yanaşı diplomatik cəbhədə də üstünlüyə sahib olduq. Hazırda diplomatiya sahəsində də davamlı olaraq nailiyyətlər əldə edirik. Belə ki, ötən illər ərzində diplomatiya sahəsində qazanılan uğurlar, beynəlxalq təşkilatların Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı qəbul etdiyi qərarlar bizim üstünlüyümüzü artırıb. Bütün ölkələr Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Torpaqlarımızı hərbi yolla azad edərkən, məhz bu tipli diplomatik uğurlara da istinad edirdik.

Təbii ki, indiki şəraitdə ölkəmizdə güclü milli həmrəylik və vətəndaş birliyi mövcuddur. Xalqımızda yüksək vətənpərvərlik ruhu var, hər bir vətəndaş qələbə xəbərlərinə köklənmişdi. Yaşından asılı olmayaraq minlərlə vətəndaşımız könüllü olaraq cəbhəyə getmək üçün müraciətlər edirdi.

Eyni zamanda, ölkəmizdə fəaliyyət göstərən siyasi partiyalar və qeyri-hökumət təşkilatları da həmrəylik nümayiş etdirərək ölkə Prezidenti, Ali Baş Komandanı birmənalı şəkildə dəstəklədiklərini bəyan etdilər. Bütövlükdə, qazanılan qələbəmizdə milli birliyimizin və həmrəyliyimizin çox böyük rolu var.

***-Ermənistanın havadarlarından olan Fransa Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etməsini, qazandığı qələbəni həzm edə bilmir. Buna münasibətiniz necədir?***

-Bilirisiniz ki, Fransa ermənilərin çoxluq təşkil etdiyi ölkələrədən biridir. Hətta erməni lobbisinin Fransada dövlət strukturlarına və hakimiyyətin müxtəlif nümayəndələrinə belə təsir etmək imkanlarının olması bəlli bir məsələdir.

Bütün beynəlxalq sənədlərdə təsdiq olunur ki, Qarabağ əzəli Azərbaycan ərazisidir və dünya dövlətləri də Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Fransanın müəyyən rəsmi dairələrindən isə Azərbaycanın suverenliyinə, ərazi bütövlüyünə təhdid xarakteri daşıyan sərsəm fikirlərin səsləndirilməsi, sadəcə, təəssüf doğurur.

Aydın məsələdir ki, bu, Fransada yaşayan ermənilərin və ölkədə mövcud olan erməni lobbisinin əməllərıdir. Paris meriyasının qondarma "Dağlıq Qarabağ respublikası"nı tanımağa hazırlaşması ilə bağlı merin fikirləri Azərbaycan-Fransa münasibətlərinə ciddi zərbə vurur. Eyni zamanda, Fransa Senatının dab u məsələ ilə bağlı sənədin müzakirəyə çıxaracağı haqda xəbərlər var. Bu addımlar, beynəlxalq hüquq normalarına və ədalət prinsiplərinə ziddir.

44 günlük Vətən müharibəsi ərzində də biz Fransanın mövqeyini, daha doğrusu, işğalçı Ermənistanı müdafiə etmək maraqlarının olduğunu gördük. Baxmayaraq ki, Fransa ATƏT-in Minsk qrupunun həmsədr ölkələrindən biridir və həmsədr olan ölkələrin tərəfkeşlik etmək cəhdləri onların mandatlarına ziddir. Bütün bu hallar Fransada olan erməni lobbisinin Fransa hökumətinə olan təsirindən irəli gəlir. Lakin bu kimi cəhdlər tamamilə mənasızdır, Azərbaycan üçün heç nə dəyişən deyil. Sadəcə, Fransa rəsmilərinin bu cür fikirlər səsləndirməsi, ilk növbədə, bu ölkənin öz nüfuzuna xələl gətirmiş olur. Çünki Qarabağda olan separatçı rejim bir terror təşkilatıdır və Ermənistanın 30 il öncə işğal etdiyi torpaqlarımızda qeyri-qanuni fəaliyyət göstərməyə çalışırdılar.

Fransa tərəfi anlamalıdır ki, həmin separatçı rejimi heç Ermənistanın özü tanıya bilməyib. Çünki bu, beynəlxalq hüquqa zidd bir məsələdir və əksi Ermənistan üçün çox ağır nəticələrlə başa gələ bilərdi. Əgər Fransa Senatı qondarma "DQR"-i tanıyarsa, bu ölkənin Minsk qrupunun həmsədrliyində qalması yolverilməzdir.

# "Makron sonda Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyəcək"



"Fransa prezidenti Emmanuel Makronun erməni icması ilə görüşündə Dağlıq Qarabağın Azərbaycan ərazisi olmasını etiraf etməsi onun mövqeyində müəyyən qədər dönüş etməsini göstərir. Amma ondan sonra başqa bir kəlmə də işlədir ki, əgər ermənilər yaşayan ərazilərdə müstəqilliyyə can atan olsa biz onları müdafiə edərik". Bunu SİA-ya açıqlamasında politoloq Qabil Hüseynli deyib.

Onun sözlərinə görə, görüşdə Fransa prezdentinin ikibaşlı bir ifadə işlətməsi onu göstərir ki, Makron ona qarşı olan təzyiqləri, xüsusilə Azərbaycandan olan təzyiqləri görərək mövqeyində korrektələr etməyə başlayıb: "Yəqin ki, son nəticədə Azərbaycanın ərazi bütövlüyünü birmənalı dəstəkləyən mövqeyini də bildirməli olacaq. Hələ ki, Makronun indiki bildirdiyi mövqe haqqında birmənalı bir şey söyləməyə imkan vermir. Amma, hər halda bunun özü də müsbət sayıla bilər".

***Gülyana***

# DİN: Açıq havada siqaret çəkənlər 100 manat cərimələnəcək



"Açıq havada maskasını çıxararaq siqaret çəkən şəxslər də cərimə ediləcək". Bunu açıqlamasında Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat Xidmətinin rəisi, polis polkovniki Ehsan Zahidov deyib. "Açıq havada maska taxmaq mütləq vacibdir. Bu, Nazirlər Kabinetinin qərarında qeyd olunub. Günü-gündən xəstəxanalarda koronavirus xəstələrinin sayı artır. Hər kəs zəhmət çəkib, maskadan istifadə etsin. Artıq açıq havada maskasını çıxararaq siqaret çəkən şəxslər 100 manat məbləğində cərimələnir", - E.Zahidov əlavə edib.

Qeyd edək ki, qanunvericiliyə əsasən, epidemiya əleyhinə rejim, sanitariya-gigiyena və karantin rejimləri dövründə fərdi qoruyucu vasitələrdən istifadə ilə bağlı müəyyən edilən tələblərin pozulmasına görə fiziki şəxslər 100 manat, vəzifəli şəxslər 200 manat, hüquqi şəxslər 400 manat məbləğində cərimə edilir.

# Baş separatçı Rusiyaya niyə təşəkkür etdi?




Özünü qondarma rejimin rəhbəri adlandıran baş separatçı Arayik Arutyunyan müharibəni dayandırdığına görə Rusiyaya və bu ölkənin prezidenti Putinə təşəkkür edib. SİA xəbər verir ki, baş terrorçu bu barədə özünün Facebook səhifəsində yazıb.

Dağlıq Qarabağda özünü qondarma rejim rəhbəri qeyd edib ki, Rusiya Federasiyasının yüksək rəhbərliyi tərəfindən göstərilən səylər və tədbirlər sayəsində Azərbaycan-Qarabağ münaqişəsi zonasında qan tökülməsini dayandırmaq mümkün oldu: "Vəziyyəti stabilləşdirmək, atəşkəs və müharibənin bitməsi, bölgədə sülh və sabitliyin bərpası üçün göstərilən səylərə vasitəçilik etdiyi üçün Rusiya Federasiyasına və Rusiya Prezidenti Vladimir Vladimiroviç Putinə xüsusi təşəkkürümüzü bildiririk". Onun sözlərinə görə, rus sülhməramlıları "vacib bir sabitləşdirici amil" halına gəlib. Arutyunyan general-leytenant Rüstəm Muradovun rəhbərlik etdiyi Rusiya kontingenti ilə təsirli bir əməkdaşlıq qurulduğunu da əlavə edib.

# Seyran Ohanyan axtarışa verildi



Azərbaycan tərəfi Ermənistanın keçmiş müdafiə naziri Seyran Ohanyan barəsində axtarış elan edib. SİA-nın məlumatına görə, təqsirləndirilən şəxs barəsində Azərbaycan Cinayət Məcəlləsinin 103-cü (soyqırım) maddəsi ilə cinayət işi başlanıb.

Bakı Hərbi Məhkəməsində hakim Elbəyi Allahverdiyevin icraatında təqdimata baxılıb və təmin edilib. Məhkəmənin qərarı ilə S.Ohanyan barəsində qiyabi həbs-qətimkan tədbiri seçilib. Onun saxlanılması üçün barəsində beynəlxalq axtarış elan edilib.

# ŞOK FAKTLAR: David Şahnazaryan: “Müharibə başa çatmayıb”

*“Mən onda xəbərdarlıq edirdim ki, Paşinyan məqsədyönlü şəkildə və davamlı olaraq Azərbaycanın müharibəyə təhrik edilməsi siyasətini yürüdür və biz bunun şahidi olduq”*

***“Mən Nikol Paşinyanın istefasını ilk gündən tələb edirdim, məhz Ermənistanın baş naziri kürsüsünü tutduğu vaxtdan”. SİA xəbər verir ki, bu barədə “Sputnik-Armeniya”ya 1994-1995-ci illərdə Ermənistan prezidentinin Qarabağ münaqişəsinin tənzimlənməsi üzrə xüsusi nümayəndəsi, Milli Təhlükəsizlik Xidmətinin sabiq rəhbəri David Şahnazaryan bildirib.***



“Hansı daxili dəyişikliklərin baş verməsi barədə danışırdım. Güc strukturlarının məqsədli şəkildə necə dağıdıldığını anlatmağa cəhd edirdim - özü də söhbət yalnız milli təhlükəsizlikdən getmirdi. Söhbət ordu və hüquq-mühafizə orqanlarından da gedirdi. Dövlət mexanizmindəki qanunsuz proseslər barədə fikir bildirirdim”, Şahnazaryan qeyd edib.

David Şahnazaryan Qarabağ barədə də danışarkən bildirib ki, hələ onda aydın olmuşdu ki, Paşinyan hətta Serj Sarqsyanın zamanında imtina etdiyi münaqişənin həlli layihəsindən imtina etməyi də bacarmayacaq: SİTAT: “Hətta böyük hesabla bizə 1997-ci ildə təklif edilən mərhələli layihəni belə realizə etmək mümkün olmadı. Mən onda xəbərdarlıq edirdim ki, Paşinyan məqsədyönlü şəkildə və davamlı olaraq Azərbaycanın müharibəyə təhrik edilməsi siyasətini yürüdür və biz bunun şahidi olduq”.

Şahnazaryan əlavə edib: “Bizim başımıza gələnlər xalqımızın 1915-ci ildəki “genosidi” (dırnaqlar bizimdir) faciə olaraq yenidən yaşanması deməkdir”.

### “Artıq onda aşkar görünürdü ki, komandanlıq bunkerində hərbi deyil, məhz siyasi qərarlar qəbul olunur”

Onun sözlərinə görə, oktyabrın 1-də o Xankəndində olub: “Cəbhədəki vəziyyətin nə yerdə olması barədə informasiyaya malik idim. Artıq onda hər şey açıq görünürdü. Məsələn, könüllülərdən o qədər pis istifadə edirdilər ki, bu, açığını desək, cinayətkarcasına idi. Hökumətin ön cəbhədə baş verənlər barədə əhaliyə verdiyi məlumatlar da cinayətkarlıq idi”.

Şahnazaryan işğaldan azad olunmuş torpaqlarımızı necə itirdiklərindən də bəhs edib: “Oktyabrın 2-də, 3-də artıq biz Cəbrayılı da itirmişdik və bilirdik ki, Moskvadan Paşinyana hər hansı konkret təklif qarşılığında hərbi əməliyyatları dayandırmaq çağırışları olurdu. Yeri gəlmişkən, sözlərimi qabaqlayaraq bildirim ki, mən hərbi əməliyyatlar davam edərkən Moskvadan gələn ən azı 4 təklif barədə bilirəm. Bu, həmin minimumdur ki, dəqiq bilirəm. Və düşmən nə qədər çox irəliləyirdisə, şərtlər də bir o qədər pisləşirdi. Bütün bu dövr ərzində vəziyyət ictimaiyyətə o səviyyədə çatdırılırdı ki, guya biz qalib gəlirik, hücuma keçirik. Artıq onda aşkar görünürdü ki, komandanlıq bunkerində hərbi deyil, məhz siyasi qərarlar qəbul olunur. Kobud desək, ordunun sükanı siyasətçilərin əlində idi”.

### “İsrail PUA-ları bizim zirehli texnikalarımızı anındaca məhv edirdilər”

“Xatırlayıram ki, haradasa oktyabrın 6-da baş nazir əks-hücuma hazırlaşdıqlarını və böyük qələbənin bir addımlığında olduğumuzu bəyan etdi, düşmənin qısa zamanda darmadağın olunacağını vəd etdi”, deyə xatırladan David Şahnazaryan bildirib ki, söhbət Cəbrayıldakı əks-hücum əməliyyatından gedirdi: “Bu açıq siyasi sifariş idi, Paşinyan tərəfindən Baş qərargaha və generalitetə basqı etmək. Bir neçə general əks-hücum planını inadla rədd edirdi və heç bir halda belə bir vəziyyətdə ikən müvafiq addıma getməyi doğru hesab etmirdi. Mövcud situasiyada yeni müdafiə mövqeləri hazırlamaq lazım idi - birinci, ikinci və üçüncü müdafiə xətlərini. Bu, aşkar idi. Və ən əsası - biz döyüş meydanı üzərindəki səmanı düşmənə bütünlüklə uduzmuşduq. İsrail PUA-ları bizim zirehli texnikalarımızı anındaca məhv edirdilər”.

**“Əgər həmin vaxt İrəvanda parlamentdənkənar iclaslarda Paşinyan hərbi əməliyyatları dayandırsaydı, biz bu qədər faciəvi nəticələrə sahib olmazdıq”**

Şahnzaryan qeyd edib ki, nəinki onun özü, eləcə də mütəxəssis ekspertlər də etiraf edirlər ki, bizim ordumuzun beli məhz həmin siyasi əməliyyat zamanı qırıldı: “Belə vəziyyət müharibənin bütün qanunlarına qarşı idi. Ordu davamlı olaraq geriləyirdi. Lakin 3-cü və 4-cü gün səhv etmirəmsə, bizim 600 ölümüz oldu. Hər gün təkliflər gəlirdi... Əgər həmin vaxt İrəvanda parlamentdənkənar iclaslarda Paşinyan hərbi əməliyyatları dayandırsaydı, biz bu qədər faciəvi nəticələrə sahib olmazdıq”.

David Şahnazaryan etiraf edib ki, İrəvanda kütləvi etirazlar gözləyirdi: “Düşünürdüm ki, İrəvan qaynayacaq. Ancaq belə olmadı. Bu, baş vermədi... Bugünlərdə tanışlarım məndən nəyinnecə olduğunu sıralaması ilə öyrənmək istədilər. Dedim ki, artıq Şuşada muğam oxunur, başqa nəyi izah edim ki?”

### “Müharibənin əsas mövzusu yenə də Sünikdir (Zəgəzur)”

O, sonda bildirib ki, baş verənlər həqiqətən də rüsvayçı kapitulyasiya idi, lakin ən dəhşətlisi hətta indinin özündə Paşinyan öz komandası ilə hakimiyyətdən yapışıb.

“Çalışırlar ki, sükanı əllərində saxlasınlar. Özlərindən siyasi təqib zənciri düzəldiblər. Bizim ictimaiyyətə elə gəlir ki, müharibə başa çatıb. Əslində isə, müharibədə fasilə yaranıb. Rusiyalı sülhməramlıları alşıqlayıram. Ancaq müharibənin əsas mövzusu yenə də Sünikdir (Zəgəzur)”, deyə Şahnazaryan bildirib.

*Rövşən RƏSULOV*

## “Conik Tevosyan Azərbaycan məhkəməsi qarşısında mühakimə edilməlidir!!!”

“28 il əvvəl, 1992-ci ilin fevralında Xocalıda dinc azərbaycanlıları, qadınları, körpələri qətlə yetirən canilərdən biri Conik Tevosyan Şuşada əsgərlərimizin əlinə düşüb”. Bunu SİA-ya politoloq Zaur Məmmədov deyib.

Deputatın sözlərinə görə, fotolarda da hər şey əks olunub: “28 il əvvəl Conik Tevosyan əlində iki ov tüfəngi, damağında siqaret, mülki paltarda dayanıb, onun qarşısında isə körpəsini qucağına alıb qarın içində oturmuş azərbaycanlı qadın var. Digər erməni cəlladları isə həmin qadının ərinin yaxasından tutublar. Azərbaycan hüquq-mühafizə orqanlarının Xocalı soyqırımına görə axtarışa verdiyi canilərin siyahı-



sında

Tevosyan 45-ci sırada dayanır.

Conik Tevosyan Sumqayıt ermənisidir, sonradan Dağlıq Qarabağa köçüb və oradakı erməni separatçılarına qoşulub. Xocalı qətliamında iştirak edib və müharibədən sonra Şuşada yaşamağa başlayıb.

Conik Tevosyanı dinc sakin kimi təqdim etməklə hay-küy salır ki, guya onun saxlanılması əsassızdır. Əslində isə məqsədləri budur ki, tez bir zamanda onu azad etdirməklə soyqırım miqyasına və qeyri-insani cəza üsullarına görə tarixə ən dəhşətli cinayət aktı kimi daxil olan cinayətdəki əməllərinə görə cəzadan kənar saxlasınlar. 20-ci əsrin sonunda dünyanın gözü qarşısında baş vermiş belə kütləvi qırğın hadisəsi öz qəddarlığına görə təkcə Azərbaycan xalqına qarşı deyil, bütövlükdə bəşəriyyətə, insanlığa qarşı törədilmiş cinayət idi. Conik Tevosyan Azərbaycan məhkəməsi qarşısında açıq şəkildə mühakimə edilməlidir!!!”.

*Ceyhun Rasimoğlu*



## PARADOKS: Kasıb ölkənin milyardlıq “ordu”su...

Ermənistanın kasıb, onun-bunun hesabına yaşayan ölkə olduğunu hər kəs bilir. Özlərini əməksevər xalq kimi təqdim edən ermənilər nədənsə kasıb görünməyə daha çox həvəslidirlər. Niyə? Sualın cavabı da beşbaşlı ola bilər. Ən başlıcası isə tarixən başqa xalqların, dövlətlərin maşası, ağalarının kuklası, bəzi dairələrin “qaşığı” olan ermənilər özlərini miskin, kasıb, dilənçi qılığında göstərməyə çalışsalar da bu millətin içindəki rəzillik, paxıllıq, əzazillik, vandallıq, barbarlıq zaman-zaman üzə çıxıb, onları bir az da vəhşiləşdirib.

44 gün davam edən müharibə də göstərdi ki, ermənilər nə qədər kasıb, əzilən, köməyə ehtiyacı olan xalq kimi özlərini təqdim etməyə çalışsalar da, təkcə Qarabağda məhv edilən ağır texnika, ballistik raketlər, qadağan olunmuş silahlara verilən pulların bunun əksini deyir.

Məğlub ölkənin baş naziri, “məğlubedilməz ordu”nun baş çavuşu Paşinyan iki gün öncə Rusiyanın baş diplomatı Lavrovu qəbul edib, daha doğrusu görüşüb. Baş nazirin iqamətgahının görünüşü, Lavrovun da olsuğu salonun vəziyyəti sosial şəbəkələrdə paylaşılıb. Qopmuş parket Paşinyanın hansı durumda olduğunu təxminən söyləməyə imkan verir. Amma bu görüntü də bir erməni hiyləsi ola bilər, yəni “Ay, Lavrov axper, görürsən də günümüzü, sizdən borca aldığımız silahların pulunu almağa gəlmisənsə bir neçə on il gözləməli olacaqsan” demək istəyir Paşinyan.

## Le Monde yazır: Ermənistanın süqutu: “İmkanlarımızı çox qiymətləndirdik”



Ermənilər 1993-cü ildə Azərbaycana qarşı apardıqları müharibədə əldə etdikləri qələbədən bəri ordularının yenilməz olduğuna inanırdılar. Ancaq qonşularının - Azərbaycanın rəhbərlik etdiyi hücumun miqyası və ordusunun üstünlüyü sarsıdıcı məğlubiyyətə və minlərlə gənc döyüşçünün ölümünə səbəb oldu. SİA xəbər verir ki, bu barədə Fransanın Le Monde qəzeti yazıb.

Qəzetdə dərc olunan məqalədə oxuyuruq: Erməni və azərbaycanlı olan iki icmanın qəlbinə çox yaxın olan strateji Şuşa qalası Bakı tərəfindən geri alındı. Və yumağa dönmüş “Artsax Respublikası”nın paytaxtı Stepanakert indi Rusiya ordusunun nəzarətində olan kövrək bir dəhlizlə Ermənistanla əlaqələndiriləræk necə yaşayacağını maraqla gözləyir.

Ermənistanın Dağlıq Qarabağdakı hərbi marşı (1988-1994) Azərbaycan tərəfindən üç onillik işğaldan sonra fiaskoya uğradı. Münaqişə zamanı mülki şəxslər arasında (Ermənistan 45, Azərbaycan tərəfində 93) və hərbçilər arasında ölənlər və yaralananlar oldu. Qarabağ cəbhələrində 27 sentyabr - 9 noyabr arasında nələrin olduğunu anlamaq ermənilər üçün vaxt aparacaq, bu qədər özünəgüvənc, qarşı tərəfin gücünü dəyərləndirməmək Ermənistanın məğlubiyyətini şərtləndirən əsas amillərdəndir.

# Azərbaycan Vətən Müharibəsində tariximizin ən parlaq səhifəsini yazdı

**Artıq 2020-ci il 10 noyabr Azərbaycan tarixinə ZƏFƏR QƏLƏBƏSİ kimi yazıldı. 10 noyabrda tarixi sənədin imzalanması ilə bağlı Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın tam qələbəsi ilə başa çatdı.**

Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusu Ermənistanın ardıcıl təxribatlarının və yeni işğal planlarının qarşısını almaq, işğal altında olan torpaqlarımızı azad etmək məqsədilə sentyabrın 27-dən etibarən zəfər yürüşünə başladı və 44 gün davam edən hərbi əməliyyatlar nəticəsində Azərbaycan Ordusu Ermənistanın 30 il ərzində qurduğu silahlı qüvvələrini darmadağın etdi, uzun illər ərzində işğal olunan Cəbrayıl, Qubadlı, Zəngilan, Füzuli rayonlarını, Xocavənd rayonunun böyük hissəsini, Laçın rayonunun bir sıra kəndlərini işğaldan azad etdi. Beləliklə, 44 gün ərzində bir milyondan çox öz doğma yurd-yuvalarından qaçqın düşmüş soydaşlarımızın 30 illik həsrətinə Ali Baş Komandanın rəhbərliyi, Mzəffər Ordumuzun gücü ilə bütün dünyaya öz qüdrətini, gücünü nümayiş etdirdi. Və sentyabrın 27-dən başlayan, 44 gün davam edən və Dağlıq Qarabağ da daxil olmaqla işğal altındakı ərazilərimizin qaytarılması ilə nəticələnən Vətən Müharibəsi tariximizin ən parlaq səhifəsinə, Azərbaycan xalqının iftixar və qürur mənbəyinə çevrildi. Azərbaycan xalqı öz liderinin - müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşərək bütün dünyaya öz gücünü, mətinliyini, mübarizliyini nümayiş etdirdi. Bu ən vacib amildir. Beynəlxalq aləmə ədalətin, haqqın öz gücü hesabına bərpa olmasının mümkünlüyünü nümayiş etdirən xalqımız öz rəhbərinin illərlə yürütdüyü müdrik siyasətin məntiqi nəticəsini gördü. Azərbaycan xalqı öz liderinin - müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşərək bütün dünyaya öz gücünü, mətinliyini, mübarizliyini nümayiş etdirdi. Əlbəttə, bütün müharibələrdə əsas sözü xalq və onun ordusu dediyi kimi uğurlu zəfərlərdə sərkərdənin də çox böyük rolu olur. Bu gün Azərbaycan xalqı hansı səviyyədə uğurlu sərkərdəyə - Ali Baş Komandana sahib olduğunu aşkar gördü. Çünki Prezident, Ali Baş Komandan İlham Əliyev yalnız hərb meydanında müzəffər sərkərdə deyil, diplomatik cəbhədə böyük strateq nümunəsi ortaya qoydu, informasiya müharibəsində Azərbaycanın haqq səsi oldu, cəsarətlə bütün təzyiqlərə sinə gərdi, öz xalqı ilə vəhdətdə olan lider kimi mübarizlik rəmzinə çevrildi.

Bütün bunların məntiqi nəticəsi olaraq 30 il işğal altında olan əzəli torpaqlarımız - Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı rayonları, Şuşa şəhəri, Hadrut qəsəbəsi, digər qəsəbələr, yüzlərlə kənd, strateji yüksəkliklər işğaldan azad edildi. Xalq qələbə sevincini daddı, hər bir şəhərin, qəsəbənin və kəndin işğaldan azad edilməsi sevincini daddı. Dekabrın 1-nə kimi digər rayonların qaytarılmasını nəzərdə tutan bəyanatın imzalanması isə TARİXİ ZƏFƏR həftəsi kimi həkk olundu.

Dövlətin Lideri olaraq, xalq olaraq bir daha göstərdik ki, Xalq-Dövlət-Ordu olaraq güclüyük, haqqın, ədalətin, ərazi bütövlüyümüz uğrunda mübarizə aparırıq. Bu Vətən Müharibəsi bir daha göstərdi ki, Ali Baş Komandanımız İlham Əliyev prezidentlik fəaliyyətinin son 17 il ərzində həm siyasi, həm də döyüş meydanında diplomatik, qətiyyətli siyasətə malik və dünya dövlətlərinin həsəd apardığı



Gücülü LİDERDİR.

Bu müharibə həm də Ermənistan tərəfinin özü haqda yaratdığı "yenilməzlik" iddialarını da darmadağın etdi. Azərbaycan siyasət meydanında olduğu kimi döyüşdə də qazandığı qələbələrlə düşmənin iç üzünü dünyaya açıb göstərdi. Həmçinin onu da vurğulayaq ki, biz bunu yalnız tarixi baxımdan deyil, hüquqi baxımdan da sübut etdik. Yəni qətnamələr kağız üzərində qaldı, nüfuzlu təşkilatların çoxu bizim tarixi torpaqlarımızla bağlı xeyrimizə olan elə bir ciddi qərarlar qəbul edə bilmədi. Bu hüququn gücsüzlüyü idi. Amma gücün hüququ nədən ibarət oldu? Dövlətin Lideri olaraq, xalq olaraq bir daha göstərdik ki, Xalq-Dövlət-Ordu olaraq güclüyük, haqqın, ədalətin, ərazi bütölüyümüz uğrunda mübarizə aparırıq. Dövlət bvşçımızın dediyi kimi "Nüfuzlu təşkilatların üzərilərinə götürməli olduğu öhdəlikləri XALQ-DÖVLƏT həmrəyliyi ilə özümüz yerinə yetirdik".

**Bəli, budur Ali Baş Komandan. Budur, ölkənin Prezidenti, Lideri olmaq!**

Azərbaycan tarixinin şanlı günlərini xalqına yaşadan beynəlxalq aləmə ədalətin, haqqın öz gücü hesabına bərpa olmasının mümkünlüyünü nümayiş etdirən xalqımız öz rəhbərinin illərlə yürütdüyü müdrik siyasətin məntiqi nəticəsini gördü. Azərbaycan Qarabağa qovuşdu, tarixi ədalət bərpa olundu. 30 il ərzində əzəli-əbədi torpaqlarımızı işğal altında saxlayan təcavüzkar Ermənistan hakimiyyətinin nəhayət ki, qanunsuz əməllərinə beynəlxalq hüquq çərçivəsində son qoyuldu. Tarixi ədalət bərpa olundu!

Bu isə Xalq-İlham Əliyev birliyinin təntənəsi, Müzəffər Azərbaycan Ordusunun hünəridir. Böyük qələbəni al qanı ilə yazan şəhidlərimizin intiqamının alınması ilə əldə edilən zəfəri, qalibiyyəti Azərbaycan xalqına bəxş etməklə Prezidentimiz İlham Əliyev həm də həyatını Azərbaycana həsr edən, "Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur!" - deyən Ulu Öndərin arzusunu reallaşdırdı. "Mən bu gün Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, Onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Bu gün şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları!".

Xalqımıza növbəti gözaydınlığı verən Ali Baş Komandanımız 2020-ci il noyabrını 20-si tarixi qələbə günüdür. Bəli, bu gün murdar ermәni işğalçılar Qarabağın aranı ilə dağlıq hissəsinin əsas qapısı olan, tək Qarabağın yox, Azərbaycanın AĞDAM şəhəri Azərbaycana Qayıtdığı gün. Noyabrın 10-da Azərbaycan, Rusiya prezidentlərinin və Ermənistan baş nazirinin imzaladıqları birgə bəyanatla Müzəffər Ali Baş Komandan İlham Əliyev hərbi sahədəki möhtəşəm uğurlarımızı məharətlə siyasi-diplomatik müstəviyə keçirməyə nail oldu.

Ali Baş Komandanımız xalqa müraciətində demişdir: "Bu bəyanat tarixi əhəmiyyət kəsb edir. Bu bəyanat Ermənistanın kapitulyasiyası deməkdir. Bu bəyanat uzun illər davam edən işğala son qoyur. Bu bəyanat bizim Şanlı Qələbəmizdir!".

"Əldə etdiyimiz qələbələr məcbur etdi ki, Ermənistan tərəfi Ağdam, Laçın və Kəlbəcəri siyasi yolla qaytarsın", - deyə dövlət başçısı qeyd edib.

Dövlət başçısı Ermənistanın bütün bu vəhşiliyə görə beynəlxalq məhkəmələrində cavab verəcəklərini də bildirib: "Cavab verəcəklər. Beynəlxalq məhkəmələrdə cavab verəcəklər. Mən demişəm, bir daha demək istəyirəm ki, beynəlxalq qurumlar gələcək, ekspertlər gələcək, bütün ziyan hesablanacaq. Otuz il ərzində bizə vurulmuş ziyan hesablanacaq. Bu günlərdə Kəlbəcəri dağıdan, meşələri qıran, binaları, məktəbləri yandıran düşmən onun da cavabını verəcək. Onlar hesab edirdilər ki, bu dağıntılardan sonra Azərbaycan əhalisi heç vaxt buraya qayıtmayacaq. O məqsədlə buranı dağıdıblar. Amma səhv ediblər. Biz qayıtmışıq!".

Bəli, haqq-ədalət zəfər çaldı. Ali Baş Komandınımız dediyi kimi: "Müzəffər Azərbaycan Ordusu ZƏFƏR çaldı. Düşmənin beli qırıldı. Düşmən torpaqlarımızdan qovuldu. Azərbaycan Bayrağı işğaldan azad edilmiş torpaqlarda qaldırıldı və əbədi dalğalanacaq".

**Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!**

Bəli, bu gün Müzəffər Azərbaycan Ordusu ZƏFƏR çaldı. Düşmənin beli qırıldı. Düşmən torpaqlarımızdan qovuldu. Ağdamımız, onun ardınca Kəlbəcərimiz, Laçınımız...bütün Qarabağımız, qürurumuzu, özünəgüvənimizliyi, inamımızı qaytaran, ümidsizliyi, sınıqlığı qovmuş, birliyimizi, yekdilliyimizi bərqərar etmiş Prezident, Ali Baş Komandanımız İlham Əliyevdən Azərbaycana əbədi yadigar qalacaq - ZƏFƏR BAYRAMIMIZ! Qarabağ Azərbaycandır!

***ZƏRİFƏ QULİYEVA,***
***YAP Qadınlar Şurasının İdarə Heyətinin üzvü, "Modern ailə və inkişaf" İctimai Birliyinin sədri***

## Şəhidlik zirvəsinə yüksələn Nicat Tarverdiyev



Torpaq uğrunda savaşa qalxaraq arxaya baxmadan vətənin işğalçılardan azad olunması yolunda şəhid olan igid oğullarımız öz qanları bahasına mənfur düşmənə kimliyini göstərdilər. Qorxaq, aciz, ən nəyahət, fərari olan düşmənə Vətən müharibəsində doğma torpağın müdafiəsində necə şərəflə durmağı göstərdilər. Neçə-neçə vətən oğlu şəhid oldu. Şəhidlik zirvəsinə yüksəlmək 44 gün davam edən Vətən müharibəsində Nicat Şöhrət oğlu Tarverdiyevin da taleyinə yazıldı. Ömrü yarımçıq qalsa da ən böyük amalının savaşına qalxdı. Vətənin səsinə səs verdi. Bir addım belə döyüş meydanından geri çəkilməyərək işğal altında olan torpaqlarımızın düşmən tapdağından azad olunmasında şücaət göstərdi. Addım-addım irəliləyən ordumuz sırasında olan Nicat da qarış-qarış vətgn torpabı üzərində irəliləyərək düşmənə dərs verdi. 22 yaşı var idi Nicatın. Ailənin yeganə övladı idi. 22 bahar yaşamışdı. Ömrün payızını yaşamaq nəsib olmadı ona. Amma dünyaya göz açanda ilk dəfə payızın nəfəsini duymuşdu. Payızda dünyaya göz açan Nicat elə payızda da şəhid oldu. 1998-ci ilin noyabrın 17-də Bakı şəhərində anadan olan Nicat noyabrın 9-u 2020-ci ildə axşam saatlarında Ağdərə istiqamətində gedən döyüşlərdə şəhid oldu.

Ali təhsilli idi. Azərbaycan Kooperasiya Universitetini bitirmişdi. Nəsimi rayon komisarlığından hərbi xidmətə çağırılmışdı. Müsəlləh əsgər olaraq vətənin ən çətin zamanında silaha sarıldı. Fizuli istiqamətində və Suqovuşan qəsəbəsini azad olması uğrinda fədakarlıqla döyüşlərdə iştirak etdi və şəhid oldu. Qəlblərdə əbədi heykəlini qurdu. Hər zaman qürurla danışacağız vətən olğuna çevrildi. Zaman yetişcək bəlkə yazılacaq əsərlərin, filmlərin qəhrəmanına çevriləcək bizim şəhid Nicat. Xalqımız dəfn olunduğu 3-cü Fəxri Xiyabanında ziyarətinə gedəcəkdir. Belə oğullar Vətən, torpaq uğrunda gedən savaşlarda zəfər tarixini, qəhrəmanlıq səhifəsini yazırlar. Azərbaycanda şəhidlik ehtiramın ən ali məqamı səviyyəsindədir. Allah rəhmət eləsin!

***Nəzakət ƏLƏDDİNQIZI***

## Neft bahalaşır



Dünya bazarında neftin qiymətində artım müşahidə olunur. SİA RT-nin məlumatına istinadən xəbər verir ki, WTI markalı neftin dekabr fyuçersləri 1,4 faiz artaraq, bir bareli 40,69 dollara çatıb. Məlumata görə, "Brent" markalı neftin yanvar fyuçersləri 1,08 faiz artaraq, bir bareli 43,24 dollar təşkil edib.

## Hande Harmancı: COVİD-19-a yoluxanların 70 faizdən çoxuna lazımsız yerə antimikrob preparatları verilir




Dünyada COVİD-19-a yoluxma səbəbinə görə xəstəxanaya yerləşdirlən xəstələrin 70 faizindən çoxuna lazımsız yerə antimikrob preparatları verilir. Bunu Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Azərbaycandakı nümayəndəliyinin rəhbəri Hande Harmancı deyib. Onun sözlərinə görə, COVİD-19-un xüsusi müalicəsi yoxdur: "Müalicə üçün verilən preparatlar dolayısı ilə başqa xəstəliklərə yönəlib. COVİD-ə yoluxma zamanı pnevmonik hal təxminən 7-8 faiz genişlənir. Buna görə də buna uyğun antimikrob preparatların verilməsi lazımdır".

H.Harmancı qeyd edib ki, dərmanların lazımsız yerə verilməsi orqanimzdə onlara qarşı davamlılığın yaranmasına səbəb olur. ÜST rəsmisi dərman qəbulu ilə bağlı iki kateqoriyadan olan insanlara tövsiyəsinin olduğunu da söyləyib: "Birinci həkimlərə müraciət edərək onlara tövsiyə edirəm ki, lütfən, xəstələrə lazım olmayan dərmanları yazmayın. Virusa yoluxanlara müraciət edərək deyirəm ki, mümkün olduğu qədər həkim nəzarəti olmadan dərman qəbul etməyin, apteklərdən həkim göstərişi olmadan antimikrob dərmanları alaraq içməyin!"

## Tibbi maskalardan istifadə ilə bağlı DİN-dən xəbərdarlıq



DİN Mətbuat xidmətindən mətbuata verilən açıqlamada bildirilib ki, insanların sıx toplaşdığı yerlərdə, bankomat önündə, növbə sıralarında açıq havada maskanı çıxarıb siqaret çəkmək, su içmək, qida qəbul etmək olmaz. SİA xəbər verir ki, verilən məlumata görə, parklarda, insanların sıx toplaşmadığı yerlərdə siqaret çəkmək, su içmək, qida qəbul etmək qadağan deyil: "Lakin insanlara tövsiyə olunur ki, siqareti daha çox siqaret çəkmək üçün müəyyənləşdirilmiş yerlərdə çəksinlər. Küçədə, parkda insanlardan kənarda siqaret çəkənlər cərimə olunmur. Sadəcə öncədən yayılan məlumatlar koronavirus pandemiyasının yayılmasının qarşısını almaq üçün tövsiyə xarakterli xəbərdarlıqlardır".

***Aysel Məmmədova***

# Fransanın cinayətkar keçmişi: Makron faşizmi dirçəldir

Prezident İlham Əliyev:

**"Əgər ermənilər fransızların "fətva"sına gedib məlum bəyanatın bəndlərinin pozulmasına görə, orada qarşılarına qoyulan tələblərin yerinə yetirilməməsi istiqamətində nələrsə edəcəksə, onqat cavablarını qalacaqlar"**

Bu gün deyəndə ki, Azərbaycanını uğurlarını, apardığı mübarizə haqqın, ədalətin, ərazi bütövlüyünün bərpasıdır, buna qısqanclıqla yanaşanlar, ortada əl-ayağa dolaşırlar. Xüsusilə də, Azərbaycanın öz tarixi torpaqlarını düşmən tapdağından azad edərək ərazi bütövlüyünü bərpa etməsi hələ də Fransa kimi ölkənin rəhbərliyini ciddi narahat edir. Belə olmasaydı, nə Paris meriyası, nə də Fransa Senatı artıq 30 ildən sonra Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin qətiyyətli siyasəti, Müzəffər Ordumuzun, igid əsgər və zabitlərimizin rəşadəti ilə həll olunmuş münaqişəni separatçılara dəstək məqsədilə yenidən alovlandırmağa hesablanmış addımlar atmazdı. Fransanın Azərbaycan Respublikasının ərazisində ikinci erməni dövlətinin yaradılmasına yönəlik cəhdləri qəti şəkildə pislənir, işğalçıya dəstək verən Parisin son davranışları hiddət doğurur.

Artıq Qarabağ münaqişəsinin bitdiyi halda yenidən Fransanın problemi gündəmə gətirib regionu qan çanağına çevirməkdə marağının nələrdən ibarət olduğunu anlamamağın səbəbi bəllidir.

Azərbaycan Prezidenti İlham Əliyev xalqa müraciətəndə də sözügedən məsələlərə toxunaraq çox gözəl siyasi mesajlar səsləndirdi. Yəni bu cür davranışlar bizim üçün əlavə baş ağrıdan, boş-boş söhbətlərdən başqa bir şey deyil: "Əgər ermənilər fransızların "fətva"sına gedib məlum bəyanatın bəndlərinin pozulmasına görə, orada qarşılarına qoyulan tələblərin yerinə yetirilməməsi istiqamətində nələrsə edəcəksə, onqat cavablarını qalacaqlar. Nə qədər döyüş meydanında məhv ediliblərsə, ondan da artıq itkini görəcəklər. Əgər ermənilər bundan sonra da dövlət kimi mövcud olub yaşamaq istəyirlərsə, bizim keçdiyimiz son dərslərdən sonra ağıllarını başlarına yığmalıdırlar. Fransanın və digər onun kimi fitnəkar dövlətlərin "fətva"sına getməsinlər. Düşdükləri hazırkı ağır iqtisadi-sosial və siyasi vəziyyətdən çıxmaq üçün yollar axtarsınlar".

Elman Məmmədov:

**"Əslində Fransa haqq-ədalət və ümumilikdə hansısa azadlıqlar mövzusundan danışacaq ən son dövlət olmalıdır"**

Milli Məclisin deputatı, Azərbaycan-Fransa parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü Elman Məmmədov isə bildirib ki, yaxın keçmişində müstəmləkəçi olan Fransanın indi hansısa "azadlıqlar"dan danışması absurddur: "Yaxın keçmişində müstəmləkəçi olan Fransanın indi hansısa "azadlıqlar"dan danışması absurddur. Azərbaycana qərəzli mövqe göstərmək əvəzinə, Fransa prezidenti öz tarixlərinə nəzər yetirərək ölkəsinin müstəmləkəçi siyasətini yada salmalıdır. Azərbaycan öz torpağında işğalçıya qarşı mübarizə aparır. Azərbaycanın işi haqq işidir. Bizim mövqeyimiz həm beynəlxalq hüquqa, həm də tarixi ədalətə əsaslanır. Qarabağ Azərbaycandır!".

E.Məmədov bildirib ki, əslində Fransa haqq-ədalət və ümumilikdə hansısa azadlıqlar mövzusundan danışacaq ən son dövlət olmalıdır: "Çünki bu ölkənin tarixinə nəzər saldıqda Fransa nəinki Avropa, ümumilikdə dünya dövlətləri içərisində özünün işğalçılıq və müstəmləkəçilik siyasəti ilə seçilib. Yəni bu istənilən ölkədə kitablardan oxunması mümkün olan tarixdir. Heç kim bunu Fransaya şər-böhtan kimi demir, yazmır. Fransanın tarix boyu Şimali Afrika, Asiya, hətta Şimali Amerikada törətdiyi soyqırımlar, qırğınlar və apardığı işğalçılıq siyasəti səngiməyib. Bu ölkə müstəmləkəçiliyi ilə seçilib və xüsusən də Afrikada fransız hərbçilərinin dinc sakinlərə hansı vəhşiliklər etməsi ilə bağlı yüzlərlə fakt mövcuddur. Ötən əsrin əvvəllərinə nəzər saldıqda görərik ki, indi özünə Avropanın demokratik dövləti deyən Fransa Türkiyəni belə parçalamağa çalışırdı, burada ermənilərə dövlət yaratmaq planları var idi. Hər cür murdar əməllərə əl atdılar ki, bu plan reallaşsın. Hətta Fransa ordusunun tərkibində sayı minlərlə olan erməni legionu yaradılmışdı. Dinc sakinlərin, türklərin qırğınına da məhz silahlandırılmış erməni dəstələri səbəb olmuşdu. Əgər ermənilərin özlərinin dediyi kimi həmin dövrdə etdikləri qələtlərə görə itkilər veriblərsə, bu gün



Ermənistan Türkiyədən yox, Fransadan təzminat istəməlidir. Çünki onları qırğınlara təhrik edən, Türkiyəyə qarşı qaldırıb torpaq iddiasına salan Fransa idi".

**"Fransanın bu gün Makronun rəhbərliyi ilə sərgilədiyi ermənipərəst mövqeyi, Azərbaycanın haqq, ədalət işinə qarşı apardığı siyasət birbaşa sülhə təhlükədir"**

Millət vəkili onu da deyib ki, rəsmi Paris bu gün də həmin "tarixi yol"u tutub: "Bu ölkə indi də noyabrın 10-da imzalanmış üçtərəfli bəyanatın pozulması, ermənilərin yenidən qarşıdurmalara, müharibəyə getmələri üçün əlindən gələni edir. Fransanın son iki ayda etdiyi bütün cəhdlər axırda ona gətirib çıxaracaq ki, Qarabağda qalan beş-on min tör-töküntü millətçi erməni də bezib bu torpaqlardan rədd olub gedəcək. Bunun günahkarı birbaşa olaraq Fransa və onun kimi hazırda həll olunmuş münaqişəni yenidən qızışdıran dövlətlər sayılacaq. Makronun ölkəsində 600 mindən çox erməni yaşayır. Bu ermənilər Fransa mediası, iqtisadiyyatı, maliyyə-bank sistemində və ümumilikdə siyasətində çox güclü yer tuturlar. Yeri gəlmişkən, hazırda onların əlinə oynayan Makronun da milli kimliyi tam bəlli deyil. Bilinmir atası, ya babası erməni əsillidir, yoxsa elə təmiz etnik ermənidir! Çünki siyasi maraqlar bir yana, ümumilikdə ermənilərin xeyrinə hədsiz dərəcədə canfəşanlıqlar edir. Deməli, şübhə yaranır ki, belə bir siyasətçinin qanında erməni xəstəliyi var. Fransanın bu gün Makronun rəhbərliyi ilə sərgilədiyi ermənipərəst mövqeyi, Azərbaycanın haqq, ədalət işinə qarşı apardığı siyasət birbaşa sülhə təhlükədir. Bir də qondarma erməni soyqırımını tanıyıb nə qələtlər etdilər ki?! Dırnaqarası soyqırımı qəbul etməyənlərə Fransa ərazisində cərimə kəsəcəklərini dedilər. Bununla nəyəsə nail oldularmı? Bu ölkənin belə siyasi hikkələri, separatizmi, yalançı soyqırımı dəstəkləyən hərəkətləri elə Fransanın özündə faşizmin dirçəlişini göstərir. Rəsmi Parisin son davranışları sülhə ciddi təhlükədir və zənnimcə, onun müttəfiqləri, xüsusən də ABŞ kimi ölkələr Fransanın bu siyasətini müzakirə edib Makronu yerində oturtmalıdır".

Bəli, göründüyü kimi, Fransız ikiüzlülüyü aydın şəkildə görünməkdədir. Fransa artıq özünün əsl ermənipərəst simasını gizlədə bilmir. Xüsusilə də, özünü və niyyətlərini Minsk Qrupunun pərdəsi altında gizlədən fransızlar Azərbaycan ordusunun uğurlu əməliyyatlarından sonra danışmağa başlayıblar. Fransanın Prezidenti Emmanuel Makronun sentyabrın 30-da Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı baş verən son hadisələrə dair verdiyi bəyanat münaqişənin həll edilməsi üçün yaradılan Minsk Qrupu həmsədri kimi ölkənin vasitəçilik missiyası ilə uyğun gəlmir, birtərəfli və qərəzlidir. O, ölkəsinin öz üzərinə götürdüyü vasitəçilik missiyasını unudaraq tərəf kimi, yəni ermənilərin yanında duran mövqe kimi çıxış edir. Fransa işğalçı Ermənistanı dəstəkləyir, obyektiv deyil. Makronun bəyanatı bölgə və beynəlxalq təhlükəsizliyin təmin edilməsinə xidmət etmir. Makronun verdiyi bəyanatdan açıq-aydın hiss olunur ki, Fransa işğalçının yanındadır. İşğalçı Ermənistan ilə işğala məruz qalan Azərbaycana beynəlxalq hüquq norma və prinsiplərinə görə fərqli münasibət göstərilməli, Ermənistana beynəlxalq təzyiq edilməlidir. Amma biz fransızlardan bunun tamamilə əksinə yürüdülən siyasət görürürük. Fransa vasitəçilik missiyasını yerinə yetirmir, hər cəhdlə erməniləri qorumağa, mühafizə etməyə çalışır. Fransanın bu qərəzli və siyasi etik qaydalara sığmayan bəyanatı onu göstərir ki, bu ölkə Minsk Qrupu həmsədri funksiyasını yerinə yetirməkdə psixoloji çətinlik çəkir. Fransa bu missiyasını tərəfsiz olaraq yerinə yetirib-yetirməyəcəyi haqqında xüsusi açıqlama verməlidir.

Son günlər sərt bəyanatlar verən bəzi Avropa dövlətlərinin və beynəlxalq təşkilatların qanunsuz məskunlaşdırmaya etiraz səsini bu illər ərzində eşitdikmi? Eyni sərt bəyanatlarına şahid olduqmu? Olmadıq. Sentyabrın 27-də Ermənistanın növbəti hərbi təcavüzünün qarşısını alıb əks-hücum əməliyyatına başlayan Ordumuz düşmənə hərbi məğlubiyyətin acısını yaşatdıqdan dərhal sonra, həmin ölkələrdən humanitar atəşkəslə bağlı Azərbaycana ünvanlanan çağırışları isə eşitdik. Bir çox avantüraların altında imzası olan Paşinyanın dörd dəfə Rusiya Prezidentinə, beş dəfə Fransanın dövlət başçısına telefon zənglərinin, yalvar-yaxarının şahidi olduq. Amma döyüş bölgəsindən onkilometrlərlə uzaqlıqda yerləşən Gəncə, Mingəçevir, Xızı və hətta Abşeronun, digər rayonlarımızın mülki əhalisi Ermənistan ərazisindən atılan raketlərin,kasetli bombaların qurbanına çevriləndə, etiraz səslərini, Ermənistana dur, dayan çağırışlarını eşitdikmi? Eşitmədik.

Birinci Vitse-prezident Mehriban xanım Əliyeva: "İrəvan beynəlxalq konvensiyalara, habelə BMT Təhlükəsizlik Şurasının erməni işğalçı qüvvələrini Azərbaycana qarşı təcavüzə son qoymağa çağıran qətnamələrinə etinasızlığı dayandırmalıdır".

Birinci Vitse-prezident Mehriban xanım Əliyeva Ermənistanın bu vəhşiliyinə kəskin etirazını bildirərkən dünya birliyinə müraciət etdi: "Humanitar atəşkəs rejiminin qüvvəyə mindiyi andan ermənilər tərəfindən Azərbaycan Respublikasının bir sıra rayonlarına 548 mərmi atılıb. Döyüş meydanında məğlub olması ilə barışa bilməyən erməni tərəfi məqsədyönlü şəkildə dinc əhaliyə hücum edir. Mən dünya birliyini baş verən bu hadisələrə laqeyd qalmamağa çağırıram. Beynəlxalq təşkilatlar, hüquq müdafiə strukturları, kütləvi informasiya vasitələri və ictimai rəyin liderləri Azərbaycanın mülki əhalisinə qarşı bu cür vəhşicəsinə amansızlığı kəskin pisləməlidirlər. İrəvan beynəlxalq konvensiyalara, habelə BMT Təhlükəsizlik Şurasının erməni işğalçı qüvvələrini Azərbaycana qarşı təcavüzə son qoymağa çağıran qətnamələrinə etinasızlığı dayandırmalıdır".

Göründüyü kimi, erməni vandalizminə qarşı, humanitar atəşkəsin təşəbbüskarlarından, ilk növbədə ermənipərəst bəyanatlara müəlliflik etmiş Fransadan Ermənistanın bu vandalizminə qarşı eyni sərt bəyanatını eşitdikmi? Hələ ki, eşitməmişik. Əgər bugünkü Ermənistanda Njde kimi faşist buyruqçusu dünyanın gözü qarşısında ermənilərin milli qəhrəmanı elan olunursa, şərəfinə abidə ucaldılırsa, bu susqunluğa niyə təəccüblənməliyik ki?! Çünki bu, erməni siyasətinin xislətidir. O cümlədən Fransa kimi ikiüzlü Bəzi dövlətlər və işğalçıya havadarlıq edənlər ya onların bu xislətindən xəbərsizdirlər, ya da özlərini hansı səbəbdənsə görməməzliyə vururlar. Belələri başqa bir həqiqətin, Azərbaycan və Ermənistan cəmiyyətləri arasındakı real fərqin də mahiyyətinə varmırlar. 30 il davam edən hərbi təcavüzə baxmayaraq, ölkəmizdə, paytaxt Bakıda etnik ermənilərlə qarışığı olan minlərlə ailə bu gün də sərbəst və ləyaqətli şəkildə yaşamaqda, çalışmaqda davam edir. Onların sayı 30 mindir, bəlkə də indi daha çoxdur. Ermənistan isə tarixən monoerməni cəmiyyəti yolunu seçib. Bu bir həqiqətdir. Dağlıq Qarabağ Azərbaycana qaytarılarsa, guya orada ermənilərin etnik təmizlənməsi aparılacağını Qərb dünyasına sırıyan işğalçıya da bu həqiqət yaxşı məlumdur. Bugünlərdə Ermənistandan atılan raketin Gəncədə yaşayan erməni qadınının özünə və evinə ziyan vurması da danılması mümkün olmayan faktdır. Amma nədənsə bəzi dövlətlər yenə də özlərini görməməzliyə vurur. Onların media qurumları Ermənistanın qərəzli təbliğatına uyub, Qarabağda guya ermənilərin etnik təmizləməyə məruz qala biləcəyi yalanını xüsusi qabardır, bunu manşetlərə çıxarırlar. Beynəlxalq mediada ermənilərin bu yalanının təbliğat mövzusuna çevrilməsinin səbəbi, təbii ki, ciddi suallar doğurur. Bəlkə də bu, ermənilərin həmin cəmiyyətlərə assimilyasiyasının pərdə arxasında qalan təsirinin nəticəsidir və qərəzli təbliğat da elə bundan qaynaqlanır. Təəssüf ki, belə bir qənaətin ortaya çıxması artıq təsadüfi görünmür...

Bu yerdə belə bir söz var: ədalət tərəzisinin tarazlığı həqiqətənmi yoxsa artıq pozulub? Torpaqlarımızın müqəddəratını etibar etdiyimiz, ədalətli yanaşma, ən azından tərəfsiz münasibət gözlədiyimiz Fransadan, nə qədər acı olsa da, bu açıqlamanı eşitdik: "Azərbaycan Dağlıq Qarabağı fəth etmək istəyir və biz buna icazə vermərik". Tərəfsiz vasitəçilik öhdəliyinə, beynəlxalq hüquqa,altında öz ölkəsinin imzası qoyulan BMT-nin dörd qətnaməsinə etinasızlıq və hörmətsizlik nümunəsi olan bu bəyanat mötərəqqi Avropa dövləti tərəfindən səsləndirildi. Tariximizdə bu cür çox ədalətsizlikləri görmüş əcdadlarımız ona görə deyərdilər ki, "dağıl səni belə dünya"...

Prezident İlham Əliyev "CNN-Türk" televiziyasına bugünlərdəki müsahibəsində, işğalçı Ermənistanın hərbi təchizatı ilə, S-300-lə bağlı suala belə bir diplomatik cavab verdi: "Yalnız bir fərq ondadır ki, biz bunu pulla alırıq və bu da çox bahalı sistemlərdir. Ermənistan isə bir çox hallarda pulsuz alır. Yəni, hədiyyə kimi, ya da ki, kredit şəklində alır. Amma o kredit kağız üzərində qalır, qaytarılmır. Təbii ki, bu bahalı silahlar Ermənistana pulsuz verilməsəydi, Ermənistanın buna sahib olması müzakirə mövzusu ola bilməzdi və bu münaqişə çoxdan çözülərdi. Çünki Ermənistanın silahlanması və pulsuz silahlanması onlarda bir əminlik yaratdı ki, bu torpaqları işğal altında əbədi saxlaya bilərlər. Yəni, fərq bundadır".

Müxbirin "Siz bütün Dağlıq Qarabağı,mübahisə predmeti olan bütün torpaqları geri götürmək niyyətindəsiniz?" sualına cənab Prezident İl0ham Əliyevin cavabı dünya dövlətlərinə və beynəlxalq ictimaiyyətə birmənalı ismarıc idi: "Biz Dağlıq Qarabağdan və sabiq Dağlıq Qarabağ muxtar vilayətini əhatə edən yeddi rayondan danışırıq".

Göründüyü kimi, dünyanın pozduğu ədalət tərəzisinin tarazlığının bərpasına xidmət edə biləcək yeganə və ədalətli cavab da məhz budur. Bu da tarixi bir həqiqətdir ki, Ermənistan adlı işğalçı qonşumuz de-fakto heç vaxt müstəqil olmayıb və bu gün də deyil. Bu ölkənin siyasi hakimiyyətində kimin olmasından asılı olmayaraq, o, müstəqil siyasi iradənin sahibi olmayıb və rəhbərlik etdiyi ərazi kiminsə əyaləti, özü isə vassalı olub.

Prezident İlham Əliyevin "Əl-Ərəbiyə" televiziya kanalına müsahibəsindən Fransa hökumətinə verdiyi cavab da Azərbaycan xalqının ürəyindən tikan çıxardı. Bu cavab ilin ən möhtəşəm cavabıdır: "Əgər Fransa Dağlıq Qarabağ üçün öz müqəddəratını təyinetmə istəyirsə, qoy onlar, demək olar ki, sakinlərinin yarısı ermənilərdən ibarət olan Marsel şəhərini onlara versinlər və onlara Dağlıq Qarabağ respublikası elan etməyə icazə versinlər və qoy onlara müstəqillik versinlər".

**R.HÜSEYNOVA**

# Albaniya tarixinə və mədəniyyətinə niyə sahib çıxmırıq?

***Alban abidələrinin, mədəni irsinin ermənilərlə heç bir bağlılığı yoxdur, ola da bilməz, çünki, Albaniyada erməni adlı xalq yox idi***

II YAZI

*əvvəli burada*
https://sia.az/az/news/politics/838652.html

Sovet dövründə Azərbaycanın müxtəlif bölgələrinə təşkil edilmiş arxeoloji ekspedisiyalar zamanı alban mədəniyyətinin incəliklərini özündə əks etdirən külli miqdarda maddi-mədəniyyət nümunələri aşkarlanıb. 80-ci illərdə Azərbaycan arxeoloqları tərəfindən Qarabağda çoxlu sayda, tarixi tikililər, məbədlər, qalalar, abidələr elmi şəkildə araşdırılıb. Bu tikililər, qalalar, heykəltaraşlıq abidələri qədim zamanlarda Qarabağın dağlıq və düzənlik hissələrinin vahid etno-mədəni məkana daxil olduqlarını təsdiq edir. Üstəlik, Qarabağın (qədim Arsakın) da daxil olduğu Albaniya əhalisinin dünyagörüşünü, dini və etnik fərqlərini əks etdirən zəngin material verir. Bu abidələrin, mədəni tapıntıların, məzar daşlarının ermənilərlə heç bir bağlılığı yoxdur, ola da bilməzdi. Çünki, Albaniyada son əsrlərə qədər erməni adlı xalq yox idi.

**Alban xaç daşları kimlərə məxsusdur?**

Azərbaycan Respublikası və indiki Ermənistan Respublikasının müxtəlif bölgələrində aşkar olunmuş xatirə daşlarında Qafqaz Albaniyasının erkən və orta əsrləri, xristianlıqdan əvvəlki dini, mədəni dünyagörüşü və simvolik təsəvvürlər əks olunub. Alban qəbir, xatirə və sərhəd stellalarının, xaç daşlarının yaranmasında, göstərildiyi kimi, üzərində dünyanın quruluşu haqqında təsəvvürlər və bütpərəstlik simvolikasının təsvirləri qalmış xristianlıqdan əvvəlki stellalar müəyyən rol oynayıb. Əvvəllər günəş, məhsuldarlıq, həyat ağacı simvolu olan bərabərtərəfli xaç sonralar xristianlıqda başqa formada (çarmıx) təcəssüm edib.

Araşdırmalar göstərir ki, xaçların yaranmasında hələ xristianlıqdan çox-çox qabaq qədim türk tayfalarının böyük rolu olub. O zamankı insanların günəş obrazını yerdə, torpaq üzərində yaradaraq, ağac, daş üzərində yüksəyə qaldıraraq yenidən göylərə qovuşdurmaq istəyi xaçların indiki formasının meydana gəlməsinə səbəb olub.

Məhz bu səbəbdəndir ki, alban xaçları özünün daha çox klassik ənənələrinə uyğunlaşdırılırdı. Belə ki, alban xaçları xristianlığaqədərki elementlər və dini ayinlərlə birbaşa bağlıdır. Bu bərabərtərəfli xaçlar 4 cəhət mənasında həm də bütün dünyanı simvolizə edirdi.

Alban xaç daşları müxtəlif birbirinə aidiyyatı olmayan dini dünyagörüşləri və mədəniyyətləri qovuşdurur. Alban xaçı dünyada yeganə xaçdır ki, xristianlığaqədərki inamların və kainatı dərketmənin əlamətlərini özündə cəmləşdirən işarələrə malikdir. Bu xaçların bütün kompozisiyaları göylə yerin əlaqəsi, günəş və məhsuldarlıq simvolu kimi əks olunub.

Mütəxəssislər Cənubi Qafqaz ərazisinə səpələnmiş alban xaç daşlarını əsasən 4 qrupda cəmləşdirirlər ki, onlar da Xaçın, Arsak, Cuğa və Yenivəng xaç daşlarıdır. Xaçın alban knyazlığı dövründən yadigar qalmış xaç daşları əsasən Kəlbəcər rayonu ərazisində tədqiq edilib. Bu tədqiqatı ilk dəfə memarlıq elmləri doktoru D.A.Axundov və fəlsəfə elmləri namizədi M.D.Axundov aparıblar. Xaçın xaç daşlarının ən maraqlı nümunəsi Xudavəng monastır kompleksində yanaşı olan 2 xaç daşıdır.

Arsak xaç daşlarının ən məşhuru və elmi ədəbiyyatda böyük marağa səbəb olanı xaçvari Arsak daşıdır. Xaçvari şəkilli Arsak xaçdaşı (1633-cü il) olduqca maraqlı və orijinaldır, o Qafqaz Albaniyasının hər yerində qəbul olunmuş kanonlar çərçivəsində həll olunub. Bu xaçdaş keçən əsrdə Eçmiədzinə aparılıb və bu gün də dünyaya erməni təfəkkürünün bədii nümunəsi kimi təqdim edilməkdədir.

Cuğa xaç daşları əsasən, İranla sərhəddə, Araz çayı sahilindədir. Onların əksəriyyətində eyni motiv təsvir olunur: qarşı-qarşıya durmuş iki qanadlı əjdahanın bədəni buynuz zirehlə örtülüb, onların adətən açıq ağızları yana çevrilib. İki əjdaha arasında qanadlı hələ, yaxud da haləyəbənzər saçı olan kişi başı təsvir olunub. İkonaqrafik əlamətlərinə görə o, İsanın başına oxşayır. D.A.Axundov qeyd edir ki, bu mürəkkəb təsvirdə bir neçə din və etiqadın (zərdüştlük, mitraizm, xristianlıq, islam) birləşməsindən yaranan simvolik qrup alban sənətkarları tərəfindən təsvir edilib. Bu xristian-bütpərəst kompozisiyalar bir xalq içərisində müxtəlif dinlərin mövcud olması nəticəsində yaranıb. Cənubi Qafqazda yeganə belə xalq Qafqaz albanları idi.

Yenivəng xaç daşları əsasən Qərbi Azərbaycan (indiki Ermənistan Respublikası) ərazisindəki Yenivəng alban monastırının ərazisində və Azərbaycan Respublikasının qərb rayonlarında aşkarlanıb. Yenivəng xaçdaşları da kompozisiya cəhətdən Cuğa xaçdaşlarına oxşayır. Bu daşların əksərində birinci planda Tanrı fiquru yerləşir.

Yenivəng (ermənilər hazırda bu məbədi Noravəng adı ilə dünyaya qədim erməni məbədi kimi təqdim edirlər) xaçdaşlarının əsas səciyyəvi və fərqləndirici cəhəti xaçın təpəsində və əsasında kişi (güman ki, İsa) sifətinin təsviridir. Bu təsvirlərin başı üzərində ay, çox güman ki, mitraist haçalar yerləşir. Xristian simvolikası baxımından ən son və kamil Yenivəng xaç daşları XIII əsrə aiddir. Əksərinin üzərində alban yazıları olan bu xaçdaşları əraziyə ermənilərin köçürülməsindən sonra ya tamamilə məhv edilib, ya da alban yazıları sındırılaraq daşların tarixi əhəmiyyəti öldürülüb. Bu xaç daşlarından görünür ki, erkən orta əsrlərdə Qafqaz Albaniyasında səcdə edilən xristian tanrısı və Mitra vahid dini-bədii obrazda birləşən eyni bir Tanrının törəmələridir.

**Qarabağ Alban memarlığı hansı mədəniyyəti nümayiş etdirir?**

Alban memarlığının nümunələri Azərbaycan Respublikası, Ermənistan Respublikası və Dağıstan ərazilərində aşkarlanıb və tədqiq edilib. Alban memarlıq nümunələrinin dövrümüzə çatan ən maraqlı nümunələri müdafiə tipli qala və istehkamlar və dini xarakterli tikililər olan kilsə və monastırlardır. Türk tayfalarının alban dövlətinin idarə olunmasında, onun mədəniyyətinin və memarlığının inkişafında danılmaz rolu olmuşdur. Ona görə də bir çox tarixçilər alban memarlığından danışarkən "Albantürk memarlığı" ifadəsini işlədirlər ki, bu da o dövrlə tam qanunauyğunluq təşkil edir. Albaniya ərazisində yaşayan bu tayfaların bir qismi xristianlığı qəbul edərək xristianlaşmış, bir hissəsi isə sonradan İslamı qəbul etmişdi. Alban mədəni irsinə məxsus müdafiə tikililərindən öz möhtəşəmliyi ilə bu gün də seçilən Dərbənd qalası, Cavanşir qalası, Çıraqqala və başqalarını göstərmək mümkündür.

Azərbaycanda Qafqaz Albaniyası dövrü abidələrinin əksəriyyəti öz ilkin formasını qoruyaraq dövrümüzə çatıb. Bu abidələr içərisində Kəlbəcər rayonunda Xudavəng məbəd kompleksi (XIII əsr), Laçın rayonu Kosalar kəndindəki Ağoğlan məbədi (IX əsr), Xocavənd rayonu Sos kəndindəki Amaras monastrı (IV əsr) və Ağdərə (IV əsr) rayonlarındakı Müqəddəs Yelisey məbədləri, Ağdərə rayonu Vəng kəndində Gəncəsər məbədi (XIV əsr), hazırki Ermənistan ərazisində Haqapat məbədi, Qoşavəng məbədi, Ağtala məbədi, Tatev məbədi, Uzunlar məbədi, Yenivəng məbədi, Sanain məbədi alban məbəd memarlığının dövrümüzə qədər çatmış ən gözəl nümunələridir.

Bunlar Azərbaycan xalqının babaları olan Albaniya hökmdarları tərəfindən tikilib. Məsələn, Gəncəsər baş kilsəsi 1216-cı ildən 1238-ci ilədək hökmdar Həsən-Cəlalın göstərişi ilə tikilib. Hökmdar özü bu kilsəni "Albaniyanın taxt-tac kilsəsi" adlandırırdı. Kilsədə olan daşüstü yazıda bildirilir ki, bu kilsə albanlar üçün inşa edilib. Bu kilsədə cəmi 84 daşüstü yazı mövcuddur. Hazırda Qarabağda- keçmiş Ağdərə rayonunun Vəngli kəndində yerləşən Gəncəsər monastır kompleksi orta çağların alban memarlığının incisidir və erməni memarlığında həmin abidənin bənzəri yoxdur.

Albaniyada xristianlıq memarlığı üslubunda dairəvi məbədlər deyilən xüsusi memarlıq da yayılmışdı və bu üslub yalnız albanlara aiddir. Bunun da öz səbəbi var. Belə ki, Albaniyada dairəvi məbədlərin tikilməsi erkən xristianlıq dövrünə aiddir və tədqiqatçıların fikrincə bu məbədlər günəşə ibadət edən albanlar tərəfindən, yəni hələ xristianlığın tam mənimsənilmədiyi və səma cisimlərinə ibadətlə qarışdırıldığı dövrlərdə tikilib. Bu cəhət erkən xristianlıq dövrü alban xaçlarında da özünü göstərir. Alban dövrünün ən mürəkkəb tikililəri isə bazillikalar və monastırlar hesab olunur. Bir çox tədqiqatçılar hesab edirlər ki, bu üslub Cənubi Qafqazda yalnız albanlara məxsusdur.

Ümumiyyətlə, Albaniya dövründən qalmış toponimlərin, memarlıq abidələrinin, mədəni tapıntıların, alban hömkdarlarının ermənilərlə heç bir bağlılığı yoxdur. Eramızdan əvvəlki əsrlərdən bu günədək indiki Ermənistan və Azərbaycan respublikalarının ərazisi tarixi və mədəni baxımdan xalqımızın irsidir. Bu irsə sahib çıxmalıyıq. Biz sahib çıxmadığımıza görə görə ermənilər sahiblənməyə çalışır. Çünki bizim bir çox tarixçilər islam dövründən o yana getməyi xoşlamırlar. Zərdüştlük kimi dünyanın ən qədim dinini, mədəniyyətini babalarımız yaratdığı haqda, biz özümüzü elə aparırıq ki, sanki bizə heç bir dəxli yoxdur. Belə halda farsların, ermənilərin, gürcülərin bu coğrafiyadakı qədim tarix və mədəniyyətə yiyilələnmə cəhdləri təəccüblü deyil.

***Elçin Bayramlı***



Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

*Yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi" istiqaməti çərçivəsində hazırlanıb*

# Səs

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

**24 noyabr**

**Son səhifə**


## İbrahimoviç “Milan”ın tarixinə düşdü




“Milan”ın hücumçusu Zlatan İbrahimoviç A seriyasının 8 matçında ardıcıl qol vuran ilk futbolçu olub. Hücumçu A seriyasının növbəti turunun matçında “Napoli” ilə oyunun 20-ci dəqiqəsində fərqlənib. İbrahimoviç “Milan” tarixində A seriyasının səkkiz matçında ardıcıl qol vuran ilk futbolçu olub. İbrahimoviç 9 qolla A seriyasının cari mövsümündə bombardirlər siyahısına başçılıq edir.

Qarşılaşma “Milan”ın 3:1 hesablı qələbəsi ilə başa çatıb. “Milan” yeddi turdan sonra 17 xalla İtaliya çempionatının yarış cədvəlində birinci pillədədir.

## “Liverpul” Məhəmməd Salahı cərimələyəcək




Misirdə yaxın qohumunun toy mərasimində iştirak edən və COVID-19-a yoluxan məşhur futbolçu Məhəmməd Salahı “Liverpul”da cərimə gözləyir. “Egyptindependent” portalının yazdığına görə, bu barədə London qəzetləri etibarlı mənbəyə istinadla məlumat yayıb.

Üç dəfə koronavirus testindən keçən və nəticələri müsbət olan Məhəmməd Salah və daha bir misirli futbolçu - “Arsenal”ın oyunçusu Məhəmməd Əlneni şənbə günü Misirin Hurqada hava limanından şəxsi təyyarə ilə Londona uçublar. Misir mətbuatı yazır ki, hər iki futbolçunu aeroporta aparan avtomobillərdə xüsusi dezinfeksiya işləri aparılıb və onlar hava limanının binasına girmədən birbaşa təyyarəyə miniblər.

Salah və Əlneni Misirə 2021-ci il Afrika Kubokunun seçmə oyunları çərçivəsində Toqo yığma komandası ilə matçda iştirak etmək üçün gəliblər. Qahirədə olduğu vaxt yaxın qohumunun da toyunda maska taxmadan iştirak edən Salah COVID-19-a yoluxub. “Liverpul” geri dönən və bir müddət karantin şəraitində qalacaq futbolçunu karantin qaydalarını pozduğu və komandanı çətin vəziyyətdə qoyduğu üçün yüksək məbləğdə cərimə edəcək.

## Yeni vaksin 70 faiz effektivdir

AstraZeneca şirkəti ilə Oksford Universitetinin COVID-19-a qarşı birgə hazırladığı vaksinin effektivliyinin 70 faiz səviyyəsində olması təsdiq edilib. Bu haqda Euronews xəbər yayıb.

Press-relizdə bildirilir ki, yeni preparatın 20 min könüllü üzərində sınaqlarının ilkin nəticələri belədir. Məlum olub ki, bu vaksin bir dəfə böyük dozada daxil edildikdə onun




effektivliyi 62 faiz təşkil edir, ikiqat vaksinləmə vaxtı isə həmin göstərici 90 faizə qədər arta bilər. Bunu “fantastik nəticə” adlandıran Böyük Britaniyanın baş naziri Boris Conson qeyd edib ki, vaksinin təhlükəsizliyinin yoxlanması hələ davam edəcəkdir. Daha əvvəl Moskvadakı Qamaleya adına İnstitut bildirib ki, COVID-19-a qarşı birinci Rusiya vaksini olan “Sptnik V”in effektivliyi 92 faiz təşkil edir. “Pfizer” və “BioNTech” şirkətlərinin hazırladığı vaksinde bu göstəricinin 95 faiz, “Modern” şirkətlərinin hazırladığı vaksində 94 faiz səviyyəsində olduğu müəyyən edilib.

## Diqqət: Koronavirusa yoluxanların ürəyində çapıq yaranır




Yeni növ koronavirus (COVID-19) daxili orqanları da sıradan çıxarır. Virus ilk növbədə həyatı vacib orqanları zədələyir. Mütəxəssislər bildirirlər ki, COVID-19 daha çox ağciyər və ürəkdə fəsadlar yaradır.

AZƏRTAC xəbər verir ki, pediatr-infeksionist Aytən Ziyadovanın verdiyi məlumata görə, infeksiya əvvəlcə ağciyər toxumalarını zədələyir: “Ən böyük fəsad ondan ibarətdir ki, ağciyərlərin yarıdan çoxu zədələnəndə çapıqlaşma baş verir. Ümumiyyətlə, istənilən iltihabi prosesdən sonra onun sonuncu mərhələsi kimi çapıqlaşma olur. Əgər iltihabın həcmi böyükdürsə, bu, həmin orqanın fəaliyyətini zəiflətmiş olur”.

Paytaxtdakı 22 nömrəli Birləşmiş Xəstəxananın həkim-kardioloqu Nüşabə Səfərova isə bildirib ki, çapıq izlərinə hətta COVID-19-a yoluxanların ürəyində də rast gəlinir. Virus damar sistemini və ürək əzələlərini də zədələyə bilir: “Ürək əzələlərinin zədələnməsi bir çox ritm pozuntularına, həyatı təhlükəli aritmiyalara səbəb ola bilər. Eyni zamanda, ürəyin yığılma qabiliyyətinin zəifləməsinə və get-gedə azalaraq daha da pisləşməsinə, xəstədə kəskin və xroniki ürək çatışmazlığının əmələ gəlməsinə, miokard infarktına aparıb çıxarması mümkündür. Damar sistemi vasitəsilə damar divarının zəifləməsinə, həm də birbaşa qana təsir edərək laxtalanmanın artmasına, trombların əmələ gəlməsinə, ayaqlarda dərin venaların zədələnməsinə aparıb çıxarır”.

Həkimlər iddia edirlər ki, xüsusi risk qrupuna aid olanlarda koronavirusun izləri daha dərin qalır. Bura şəkərli diabet, onkoloji, ürək çatışmazlığından əziyyət çəkənlər və hipertoniklər aiddir. Ona görə də virusa yoluxanların ümumi müayinədən keçməsi tövsiyə olunur. Yalnız bu halda zədələnmiş daxili orqanların vaxtında müalicəsinə başlamaq və müsbət nəticələr əldə etmək olar.

## Soyğunçuluq edən şəxs saxlanılıb

Nizami rayonunda soyğunçuluq edən şəxs yaxalanıb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, noyabrın 22-də rayon polis idarəsinin 24-cü polis bölməsinə rayon ərazisində bir nəfərin Bakı şəhər sakini M.Süleymanzadənin 1350 manat dəyərində mobil telefonunu açıq talama yolu ilə alması barədə müraciət daxil olub.



Polis əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində soyğunçuluğu törətməkdə şübhəli bilinən paytaxt sakini S.Həsənov müəyyənləşdirilərək saxlanılıb. Faktla bağlı Nizami Rayon Polis İdarəsi tərəfindən araşdırma aparılır.

## Xaçmazda yük avtomobilinin vurduğu piyada ölüb

Noyabrın 22-si gecə saatlarında Xaçmaz rayonu ərazisində ölümlə nəticələnən yol nəqliyyat hadisəsi baş verib. AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, rayon sakini Şahin Qocayev yolu keçərkən “TİR” markalı yük maşını tərəfindən vurulub. Ağır bədən xəsarətləri alan piyada dünyasını dəyişib. Faktla bağlı araşdırmalar davam etdirilir.




**Baş redaktor:**
**Bəhruz Quliyev**
**Baş redaktorun müavinləri:**
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**



**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**



Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.



**Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.**

**“Azərbaycan” nəşriyyatında çap olunur**

***Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4600**